30_27 IYUl-QARA.qxd 8/29/2024 9:58 PM Page 1

UNİKAL

№31 (2213) 30 avqust 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Monopolistlərə son zərbə:

## Dövlətin yeni antiinhisar mübarizəsi başlayır



Səh.9



## Teymur Musayev üçün Oqtay Şirəliyev xatırlatması

*Bu ilin ilk yarısında 614 min 629 nəfər Azərbaycan vətəndaşı turist kimi xarici ölkələrə səfər edib. Açıqlanan rəsmi rəqəmlərdən məlum olub ki, xarici ölkələrə turist kimi səfər edən Azərbaycan vətəndaşlarının 17 min 171 nəfəri və ya 2,8%-i müalicə məqsədi ilə gedib.*

*Müalicə üçün başqa ölkələrə gedən Azərbaycan vətəndaşlarının yarıdan çoxu - 9 min 640 nəfəri Türkiyəyə yollanıb.*

*Müalicə üçün xaricə gedən ölkə vətəndaşları aşağıdakı ölkələrə üz tutublar:*

*Türkiyə - 9 640 nəfər*
*Rusiya - 5 308 nəfər*
*Gürcüstan - 1 535 nəfər*
*Almaniya - 321 nəfər*
*İran - 148 nəfər*
*Çexiya- 72 nəfər*
*Çin - 50 nəfər*

Səh.8

## "Yeni qurum cəmiyyəti narahat edən məsələlərlə məşğul olmalıdır"



*Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı fərmanla İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsasında Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılıb. Müəyyən edilir ki, Agentlik antiinhisar, haqsız rəqabət...*

Səh.4

## Azərbaycanda ötən il 350-yə yaxın dövlət qulluqçusu cəzalandırılıb



*Dövlət qulluqçularının etik davranış qaydaları haqqında 2023-cü il üzrə hesabat hazırlanıb. Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Bildirilib ki, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarının...*

Səh.2

## MSK sədri seçkilərin nəticələrinin nə zaman açıqlanacağını bildirdi



*Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinin nəticələrinin nə zaman açıqlanacağı barədə məlumat verib. "Unikal"ın xəbərinə görə, o, MSK-nın bugünkü iclasında diqqətə çatdırıb ki, səsvermə günü ilkin nəticələri operativ verməyə çalışırlar.*

Səh.2

30_27 IYUl-QARA.qxd 8/29/2024 10:00 PM Page 2



# Xatirədən fotoşop tənqidlərinə cavab



***Müğənni Xatirə İslam son günlər yeni fotosessiyaları ilə gündəmə gəlib.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, sənətçinin yeni şəkillərinə tərif qədər tənqidlər də yazılıb.

Onun fotolarında fotoşop etməsini izləyicilər tənqid edib. Xatirə isə İzləyicilərindən birinin "O qədər fotoşop edib ki, qulağının biri yoxdur" şərhinə "Deyirəm, işingücün yoxdur da" cavabını verib.

# "Anamın 40-ı çıxmamışdı, insanları güldürməyə çalışırdım" - Əməkdar artist

***"Bu şəhərdə" yumoristik - estrada teatrının Heydər Əliyev Sarayında keçirilən "Kəm Ər" adlı konsertində kövrək anlar yaşanıb.***



"Unikal" olay-a istinadən bildirir ki, sözügedən teatrın üzvləri Əməkdar artistlər Rafael İsgəndərov və Coşqun Rəhimov onları valideyinlərinin dünyasını dəyişməsinin "40 günü" çıxmamış verilişlərə və səhnəyə çıxmalarına görə qınayanlara ironiyalı cavab veriblər.

Rafael "Deyirəm yadına düşür o zaman, atam rəhmətə gedəndə verilişlərin birinə çıxdım. Başladılar haqqımda ağızlarına gələni danışmağa. Dedilər ki, buna bir bax, atasının dünyasını dəyişməsindən heç "40 gün" keçməyib amma verilişə çıxıb. Nə etməli idim? Uşaqlarıma deməli idim ki, gedin 40 gün acından ölün atanız babanız üçün yas saxlayır" sözlərini dilə gətirib.

Coşqun isə Rafaelin bu fikirlərinə "Məndə isə anamın ölümündən "40 gün"ü heç keçməyib amma səhnədə insanları güldürməyə çalışıram (kövrəlir) qarşılıq verib.

Bundan sonra İsgəndərov "Bəzi nadanlar başa düşmürlər ki, bu bizim işimizdir, bununla çörək qazanırıq, ailə saxlayırıq. Sən təsəvvür et ki, çörək bişirən "40 gün" çörək bişirmir və s.." ifadələri ilə məsələyə münasibətini bildirib.

İkilinin bu çıxışı isə onları seyr etməyə gələn tamaşaçıları göz yaşlarına boğub.

Qeyd edək ki, R.İsgəndərovun atası Çərkəz İsgəndərov 2 il əvvəl xərçəng xəstəliyindən dünyasını dəyişib. C. Rəhimovun isə anası Ağanaz Rəhimova bu ilin fevralında xərçəng xəstəliyindən vəfat edib.



# "Söylü" obrazını oğurlayıb özlərinə "aktrisa" deyirlər"

***Əməkdar artist Coşqun Rəhimov məşhur "Bəxt üzüyü" filmində Xalq artisti Afaq Bəşirqızının canlandırdığı "Söylü" obrazını oynayanlara söz atıb.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, o, bu haqda "Şən gənc" verilişində danışıb.

"O qədər "Söylü" obrazını oğurlayıb oynayanlar var ki, indi özlərinə aktrisa deyirlər" deyə, aktyor bildirib.

Qeyd edək ki, rejissorluğunu Ramiz Əzizbəylinin etdiyi "Bəxt üzüyü" filmində məşhur Söylü obrazını Xalq artisti Afaq Bəşirqızı canlandırıb.

# "Yalı çapkını" bu tarixdən qayıdır

***"Yalı çapkını" serialının yeni sezon üçün yayım tarixi bəlli olub.***



"Unikal" xəbər verir ki, serial növbəti mövsümə sentyabrın 13-ü start verəcək.

Qeyd edək ki, serialın baş rollarını Afra Saraçoğlu ilə Mərd Ramazan Dəmir canlandırır.

# Engin Altan Düzyatan Bakıya gəlir

***Türkiyənin məşhur aktyoru Engin Altan Düzyatan Bakıya gələcək.***

"Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktyor Bakıda 11-22 noyabrda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Beynəlxalq Məşvərət Şurasında öz ölkəsini təmsil edəcək.

Aktyor iqlim dəyişikliyi ilə mübarizə istiqamətində atılan addımları təbliğ etmək vəzifəsi daşıyan dünya ictimaiyyətinin 21 nüfuzlu nümayəndəsi arasında yer alacaq.



30_27 IYUI-QARA.qxd 8/29/2024 10:01 PM Page 3



# Nazirlik Daşaltı Dövlət Təbiət Yasaqlığının Əsasnaməsini təsdiqlədi

***Azərbaycanın Daşaltı Dövlət Təbiət Yasaqlığı haqqında Əsasnamə təsdiq edilib.***

Bununla bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Kollegiyası qərar qəbul edib. Əsasnamədə Yasaqlığın fəaliyyət istiqamətləri, xüsusi mühafizə rejiminin xüsusiyyətləri və Yasaqlığın mühafizəsi müəyyənləşib.

Əsasnamənin ümumi müddəalarında qeyd edilib ki, Daşaltı Dövlət Təbiət Yasaqlığı təbiət komplekslərinin və ya onların komponentlərinin (nadir və nəsli kəsilməkdə olan Bənövşəyi güləbətin, Hirkan şümşəsi (Hirkan pırkalı), Kürən güneyotu, Qarabağ tülpanı, Qayalıq böyürtkəni, Nöqtəli səhləb, Sağsağan gülxətmisi, Şoviç soğanı, Şmidt tülpanı, Şuşa gəvəni, Şuşa vələsi, Vələsyarpaq azat, İslandiya setrariyası, Dağ ramalinası, Avropa vaşaqı, Avropa cüyürü, Böyük qırğı, Adi uzunqanad, Enliqulaq bükükdodaq, Cənub nalburnu və s.) qorunması və ya bərpası, habelə ekoloji tarazlığın saxlanması üçün xüsusi əhəmiyyət daşıyan ərazidir.

Yasaqlığın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu əraziyə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir. Yasaqlığın torpaq və su (akvatoriya) sahələrini kənar antropogen təsirlərdən qorumaq məqsədilə həmin ərazilərin sanitariya-mühafizə zonaları müəyyən edilir.

Sənəddə qeyd edilib ki, xüsusi mühafizə olunan təbiət ərazilərinin sxemləri əsasında Yasaqlığın yaradılması və genişləndirilməsi üçün torpaq sahələri müvafiq ehtiyat torpaq fondunda saxlanılır və həmin ərazilərdə torpaqların istifadəsinə məhdudiyyətlər qoyulur.

Əsasnamədə yasaqlığın fəaliyyət istiqamətləri də müəyyənləşib. Belə ki, buraya təbiət komplekslərinin və ya onların komponentlərinin qorunması və ya bərpası, habelə ekoloji tarazlığın saxlanılması, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən təsərrüfat fəaliyyətində müəyyən edilmiş məhdudiyyətlərə əməl edilməsinin təmin olunması, həmçinin elmi, mədəni, tədris və məhdud təsərrüfat fəaliyyətlərinin həyata keçirilməsi daxildir.

Bundan başqa, genetik fondun, bioloji müxtəlifliyin, ekoloji sistemlərin, təbiət komplekslərinin və obyektlərinin təbii şəraitdə bərpa edilərək sağlamlaşdırılmasının və təbii vəziyyətinin qorunub saxlanılması məqsədilə təbiət ərazilərinin mühafizəsinin həyata keçirilməsi, Yasaqlığın ərazisində ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi çərçivəsində ekoloji monitorinqin həyata keçirilməsi, müasir yanaşmaların tətbiqi əsasında unikal meşə fondunun və mühafizə olunan təbiət komplekslərinin bərpasını təmin etməklə regionun “yaşıl zona”ya çevrilməsinə töhfə verilməsi nəzərdə tutulur.

Əsasnaməyə görə, yasaqlığın vəziyyətinə, mühafizəsi, qorunması və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə, normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasına dövlət nəzarətini nazirliyin regional orqanı həyata keçirir.

Qeyd olunub ki, yasaqlığın hüquqi və fiziki şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır. Yasaqlığın rejiminin pozulmasında təqsirkar olan şəxslər qanunvericilikdə nəzərdə tutulan qaydada mülki, maddi, inzibati və cinayət məsuliyyəti daşıyacaqlar.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında normativ hüquqi aktların tələblərinin pozulması nəticəsində yasaqlığa vurulan zərər Mülki Məcəllədə və təbiətin mühafizəsi ilə bağlı digər normativ hüquqi aktlarda nəzərdə tutulan qaydada ödəniləcək.

# Dövlət Xidmətinə işə qəbulla bağlı müsabiqənin nəticələri açıqlandı

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) tərəfindən vakant vəzifələrə işə qəbulla bağlı müsabiqənin nəticələri açıqlanıb***

“Unikal” bu barədə DVX-ya istinadən xəbər verir. Vakant vəzifələrə işə qəbulla bağlı test imtahanı ötən ilin noyabr ayında Dövlət İmtahan Mərkəzi ilə birlikdə keçirilib. Test imtahanında ümumilikdə 2 392 nəfər iştirak edib, onlardan 616 namizəd 70 və daha yüksək bal toplamaqla müsabiqə şərtlərini ödəyərək ikinci mərhələyə - müsahibəyə buraxılıb.

Müsabiqənin digər ixtisas sahələri üzrə ikinci mərhələsində iştirak edən daha bir qrup namizədlə bağlı yekun nəticələr açıqlanıb. Bu mərhələdə iştirak etmiş 95 namizəddən 67-si müsabiqəni uğurla başa vurub.

Uğur qazanan namizədlər DVX-nın kadr ehtiyatı bazasına daxil edilərək vakant vəzifələrə təyin olunacaqlar. Müsabiqənin nəticələri barədə ətraflı məlumatla buradan tanış olmaq mümkündür.

Qeyd edək ki, müsahibələr mərhələli şəkildə keçirilir və başa çatdıqdan sonra nəticələri elan olunur.

# Teymur Musayev üçün Oqtay Şirəliyev xatırlatması

## İlin ilk yarısında müalicə üçün xarici ölkələrə gedən azərbaycanlıların siyahısı... - Yeni nazirdən sonra ölkə səhiyyəsində nə dəyişib?

***Bu ilin ilk yarısında 614 min 629 nəfər Azərbaycan vətəndaşı turist kimi xarici ölkələrə səfər edib. Açıqlanan rəsmi rəqəmlərdən məlum olub ki, xarici ölkələrə turist kimi səfər edən Azərbaycan vətəndaşlarının 17 min 171 nəfəri və ya 2,8%-i müalicə məqsədi ilə gedib.***

Müalicə üçün başqa ölkələrə gedən Azərbaycan vətəndaşlarının yarıdan çoxu - 9 min 640 nəfəri Türkiyəyə yollanıb.

Müalicə üçün xaricə gedən ölkə vətəndaşları aşağıdakı ölkələrə üz tutublar:



Türkiyə - 9 640 nəfər
Rusiya - 5 308 nəfər
Gürcüstan - 1 535 nəfər
Almaniya - 321 nəfər
İran - 148 nəfər
Çexiya- 72 nəfər
Çin - 50 nəfər
İsveçrə - 41 nəfər
Digər ölkələr - 56 nəfər

Xatırladaq ki, koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanın quru sərhədləri bağlıdır və vətəndaşlar ölkə hüdudlarından kənara, əsasən, hava nəqliyyatı ilə gedirlər, təyyarə biletləri isə olduqca bahadır. Lakin belə məlum olur ki, hətta bu da azərbaycanlıların böyük xərc çəkərək müalicə üçün xaricə üz tutması hallarını azaltmayıb.

(Burada kiçik bir haşiyə çıxaq: yerli səhiyyəyə inamsızlıqdan danışarkən biz hələ son vaxtlar hansısa xarici ölkədən gələn həkimlərin qəbuluna düşmək ənənəsinin geniş yayılmasına toxunmuruq. Müşahidələr göstərir ki, belə qəbullar üçün növbə almaq bəzən həmin həkimin gəlişindən həftələr öncə artıq qeyri-mümkünsüzə çevrilir).

Yada salaq ki, hələ Oqtay Şirəliyevin səhiyyə naziri olduğu zamanlarda bu məsələ çox aktual idi. Hətta cəmiyyət və mediada ən çox müzakirə olunan məsələlər sırasında azərbaycanlıların müayinə və müalicə ardınca başda İran, Türkiyə və Gürcüstan kimi qonşu ölkələr daxil olmaqla xaricə axını da vardı.

Bu mənada pandemiyadan öncə, 2019-cu ildə açıqlanan bir statistika ibrətamiz idi və durumun, daha dəqiq desək, yerli səhiyyəyə inamın, etibarın nə qədər acınacaqlı olduğunu aydın şəkildə göstərirdi. Həmin statistikadan məlum olurdu ki, öncəki 6 ildə xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı 14,5% və ya 623,4 min nəfər artaraq 4 milyon 287,7 min nəfərdən 4 milyon 908,1 min nəfərə yüksəlib. Eyni artım müalicə üçün gedənlərin sayında da müşahidə edilib. Belə ki, 2013-cü ildə müalicə məqsədilə 169 min nəfər Azərbaycan hüdudlarından kənara üz tutubsa, 2018-ci ildə həmin rəqəm nə az, nə çox, düz 71 faiz, yaxud 119,6 min nəfər artıb, yəni olub 288,6 min nəfər. Bu dini ziyarətlərə, yaxud qohumlara, dostlara baş çəkməyə gedənlərin sayından daha çox idi.

Daha bir hesablama aparaq: pandemiyadan öncə, yəni ölkənin quru sərhədləri açıq ikən, bir az da dəqiqləşdirsək 2013-cü ildən 2018-ci ilədək 288 min azərbaycanlının xaricə getdiyini nəzərə alsaq, bu, orta hesabla ildə 48 min nəfər edirdi.

İndi ilin təkcə ilk yarısında eyni məqsədlə 17 mindən çox azərbaycanlının ölkə hüdudlarından kənara yollandığı məlum olur. Məntiqlə, bu rəqəm ilin sonrakı altı ayında 40 min nəfəri vurub keçəcək. Özü də Azərbaycanın quru sərhədlərinin bağlı olduğu bir şəraitdə! Yəni, Oqtay Şirəliyevin səhiyyə naziri olduğu dövrlə müqayisədə az qala dəyişən heç nə yoxdur.

Elə isə indiki səhiyyə naziri Teymur Musayevdən soruşmaq istərdik: sələfinizin, yeni Şirəliyevin zamanında azərbaycanlıların öz sağlamlıqlarını başqa ölkələrin həkimlərinə, xəstəxanalarına etibar etməyə çalışmasının səbəbi olaraq bu göstərilirdi ki, Azərbaycanda səhiyyənin inkişafı yönündə son illərdə bir sıra addımlar atılsa da, ayrı-ayrı savadlı həkimlərimiz olsa da, tibbi xidmətlərin səviyyəsinin, peşəkarlığın yüksək olmaması sirr deyil, insanlar da həm bu səbəbdən, həm də xidmətlərin xeyli ucuz olmasına görə uzun illərdir ki, müayinə və müalicə üçün ən pis halda qonşu ölkələrə üz tutmaqdan başqa yol tapmırlar.

Yaxşı, bəs aradan keçən xeyli müddətdə, doğrudanmı, heç nə dəyişməyib? Yoxsa hazırkı səhiyyə naziri bu posta təyin olunduqdan sonra verdiyi vədləri unudub, ya da həmin vədlər elə vəd olaraq da qalıb?

Əks təqdirdə necə ola bilər ki, hətta ölkənin quru sərhədlərinin bağlı, təyyarə biletlərinin isə orta statistik vətəndaşın cibi ilə müqayisədə baha olması belə vəziyyəti dəyişdirməsin - azərbaycanlılar müalicə üçün eynilə Oqtay Şirəliyevin zamanındakı kimi xaricə axışmağa davam etsinlər?!

Hörmətli Teymur müəllimin və onun rəhbəri olduğu nazirliyin bu absurdu, anormal duruma ağlabatan bir izahı varmı, görəsən?!

***Toğrul Əliyev***

# Azərbaycan-Rusiya danışıqlarındakı “Zəngəzur atmosferi”

## “Əliyevlə Putinin telefon danışığı Azərbaycan-Rusiya müzakirə siyahılarında Zəngəzur dəhlizi prioritetlərinin ön sırada dayandığını göstərir”

***Avqustun 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Dövlət başçıları Prezident Vladimir Putinin Azərbaycana dövlət səfərinin nəticələrindən məmnunluqlarını ifadə ediblər. Prezidentlər səfər çərçivəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində aparılan fəaliyyətin Azərbaycan ilə Rusiya arasında tərəfdaşlıq və strateji müttəfiqlik münasibətlərinin daha da güclənməsinə xidmət edəcəyinə əminliklərini bildiriblər.***

Telefon söhbəti əsnasında Cənubi Qafqaz regionunda vəziyyət müzakirə olunub. Vladimir Putin Rusiyanın Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına dəstək verməyə hazır olduğunu deyib. Telefon danışığı zamanı Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin açılması ilə bağlı fikir mübadiləsi aparılıb.




Bakı səfərindən sonra Putinin Azərbaycan liderinə zəng etməsi və mühüm məsələlər barədə fikir mübadiləsi aparması diqqətçəkən məsələ kimi müzakirə olunur. Bu barədə fikirlərini “Unikal”la bölüşən siyasi şərhçi Aqşin Kərimov deyib ki, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan Prezidenti İlham Əliyevə zəngi barədə bir neçə tezis üzərindən analiz etmək mümkündür. Onun sözlərinə görə, Putin Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığından sonra Əliyevə zəng etməklə Azərbaycan-Rusiya geosiyasi karyerasının gedə biləcəyi yerləri dəqiqləşdirir: “İkincisi, Rusiya Ermənistanla bağlı əldə etdiyi və ya elə göstərməyə çalışdığı heyranedici kəşfiyyat məlumatlarını Azərbaycanla bölüşməyi zəruri hesab edir və bununla Moskva iki məsələni prioritetləşdirir:

- Rusiya Azərbaycan üzərindən Ermənistana siqnallar ötürməklə Moskvanın regiondakı ambisiyalarını Qərbin sıxışdırılması tendensiyası ilə tutuşdurmağa çalışır,

- Rusiya regional kommunikasiyaların açılması məsələsinin təzyiq, yoxsa siyasi yolla həllini yoxlayıb nəticələri buradan yola çıxaraq təmin etmək istəyir.

3. Putinlə Əliyevin telefon danışığında Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin (Zəngəzur dəhlizi) açılması ilə bağlı fikir mübadiləsi aparılması məsələnin Bakı-Moskva xəttində ağırlıq təşkil edən mövzu kimi diqqətdə saxlanılması deməkdir. Bu, əsasən üç məsələni aktuallaşdırır:

- Cənubi Qafqazda İranın Zəngəzur dəhlizinə manеə yaratması risklərinin qalması Rusiyanın Tehranla danışıqlar masasını hədsiz canlandırmasına təkan verir,

- Regionda Rusiya ilə Qərb arasında geosiyasi maxinasiya qurmaq üçün apardığı rəqabət Azərbaycanı düzgün strateji qərarlar verməyə məcbur edir,

- Bunlar, Ermənistanın silahlanmaqla regionun mərkəzi səhnəsinə çıxmağa hazırlaşdırılması fonunda aşkar şəkildə görünəcək”.

Müsahibimiz nəticə olaraq, onu da nəzərə çatdırıb ki, Əliyevlə Putinin telefon danışığı Azərbaycan-Rusiya müzakirə siyahılarında Zəngəzur dəhlizi prioritetlərinin ön sırada dayandığını göstərir. “Burada Kreml Azərbaycan-Ermənistan sülh gündəliyində etibarlı vasitəçi qismində görünmək istəsə də, bu, Bakı tərəfindən yüksək profilli nəticə kimi qiymətləndirilmir. Ancaq nəticədə Azərbaycan-Rusiya danışıqlarındakı “Zəngəzur atmosferi” Ermənistanın onsuz da məhdud seçim imkanlarını aradan qaldırır və Bakının şərtləri əsasında İrəvanın güzəştə getməsi üçün təzyiqlər yaradır. Prosesin sülh danışıqları və ya güc tətbiqi ilə reallaşması isə ən çox Ermənistanın güzəşt kodeksinə hansı dərəcədə əməl edib-etməyəcəyindən asılıdır”, - deyə fikrini tamamlayıb.

Məsələ ilə bağlı Modern.az-a danışan VI çağırış Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyan Zəngəzur dəhlizinin açılmasını yubatmaqla öz imzasına hörmət etmədiyini göstərir: ”Üçtərəfli bəyantın 9-cu maddəsinə əsasən, Ermənistan Azərbaycanın Qərb rayonları ilə Naxçıvan arasında sərnişinlərin, yüklərin manesiz hərəkətinə zəmanət verməlidir. Nəqliyyat dəhlizi üzərində də nəzarəti Rusiya Federal Təhlükəsiz Xidməti həyata keçirməlidir. Ermənistan Baş naziri Nikol Paşinyan bu sənədə imza atıb. Daha sonra Qərbdən gələn tapşırıqla Zəngəzur dəhlizinin açılmasının qarşısı hər vasitə və yolla Ermənistan tərəfindən alınıb. Nəzərə almaq lazımdır ki, Ermənistan tərəfi birgə bəyanatda olan müddəaların heç birini yerinə yetirməyib. İndiyə qədər birgə bəyanatın müddəaları Azərbaycanın gücü ilə həyata keçirilib. Bununla da Ermənistan rəhbəri bir daha öz imzasına etinasız yanaşdığını nümayiş etdirir. Ona görə də, ümumiyyətlə, Ermənistana etimad etmək düzgün deyil”.

E.Mirbəşiroğlunun fikrincə, son günlər Ermənistanın bölmələrimizi atəşə tutması Rusiyanın kommunikasiya xətlərinin açılması məsələsini intensivləşdirməsi ilə bağlıdır: ”Belə bir vaxtda bölmələrimizi atəşə tutmaqla Ermənistan Qərbin yenə də hər vasitə ilə Zəngəzur dəhlizinin açılmasının qarşısını almağa çalışdığını göstərir. Düzdür, ABŞ Zəngəzur dəhlizinin açılmasında maraqlı olduğunu bildirib. Amma ABŞ özünün nəzarəti altında nəqliyyat kommunikasiyasının açılmasını istəyir. Bu, heç kimdə şübhə yaratmır. Başqa coğrafiyalarda da ABŞ istər enerji daşıyıcılarının ötürülməsi xətti, istərsə də nəqliyyat kommunikasiya infrastrukturlarını öz nəzarətində saxlamağa çalışır. Ermənistan ərazisindən Naxçıvanla kommunikasiya yaradılacaqsa, ABŞ, eləcə də Qərb dairələri bu kommunikasiyanı öz nəzarəti altında saxlamağa çalışırlar. Çünki Ermənistan Baş naziri beynəlxalq nəzarət mexanizminin olması məsələsini irəli sürdükdə elə ABŞ-nin və ya onun Fransa ilə birgə nəzarətini nəzərdə tutub. Bu baxımdan düşünürəm ki, yenə də Ermənistan tərəfi təxribatlar törətməklə vəziyyəti gərginləşdirməyə, diqqəti nəqliyyat dəhlizinin açılmasından yayındırmağa çalışır. Lakin zamanla da olsa, regionda planlaşdırılan bütün nəqliyyat kommunikasiya dəhlizləri açılacaq”.

***M.İbrahimli***




# Şəhid və qazi övladları Türkiyədə Təhsil Mərkəzində

***Azərkosmosun “K.O.S.M.İ.K. Akademiya”sının təşkilatçılığı ilə şəhid və qazi ailələrinin övladları Türkiyənin Gökmən Kosmik və Aviasiya Təhsil Mərkəzinə səfər ediblər.***

”Unikal” xəbər verir ki, layihənin məqsədi məktəbliləri texnologiya, innovasiya, elm və sahibkarlıq sahəsinə həvəsləndirmək, onların bu istiqamətdə bilik və bacarıqlarını inkişaf etdirməkdir.

Proqram çərçivəsində məktəblilər müxtəlif simulyatorlara daxil olaraq aerodinamik testlər və jet mühərriklərinin prinsipləri ilə tanış olublar. Həmçinin “Pilot Yumurtasını Qoru” adlı yaradıcı vörkşopda iştirak edərək problem həlletmə bacarıqlarını təkmilləşdiriblər. Eləcə də raketlərin prinsipləri və mikroqravitasiya şəraitində maye dinamikası mövzuları əhatə edilməklə kosmos mühitində iş, Beynəlxalq Kosmik Stansiya (ISS) və “Dragon” kapsulu haqqında ətraflı məlumat əldə ediblər.

Məktəblilər “Docking” simulyatoru vasitəsilə kosmik əməliyyatların real simulyasiyasında iştirak edib, astronavt menyularının hazırlanması üzrə təcrübə keçməklə VR mikroqravitasiya simulyatoru vasitəsilə real kosmos şəraitini sınaqdan keçiriblər.

Səfər çərçivəsində məktəblilər robot qol təlimləri, ilkin tibbi yardım, diş dolğusu və astronavt alət dəsti ilə alətlərin yığılması praktik seminarında iştirak ediblər. Eyni zamanda GeneLab və bir çox simulyatorlarla tanış olmaqla kosmik missiyaların texniki tərəflərini dərindən öyrəniblər.

Səfərin irəliləyən günlərində məktəblilər kosmik kostyumlarla incə motor bacarıqları məşqlərinə cəlb edilib və onlara tərəvəz istehsalı sistemləri və Türkiyənin ilk insanlı kosmik missiyası haqqında məlumatlar təqdim edilib.

Qeyd edək ki, səfər Azərkosmos, Azərbaycan Hava Yolları (AZAL), Türk Dövlətləri Təşkilatı (TDT), Türkiyə Kosmik Agentliyi (TUA), Bursa Şəhər Bələdiyyəsi və Gökmən Kosmik və Aviasiya Təhsil Mərkəzinin (GUHEM) təşəbbüsü və dəstəyi ilə həyata keçirilib.

# Xankəndinin su təsərrüfatı mexanizmi belə qurulub



***Regional Su Meliorasiya Xidmətinin Qarabağ Regional Sukanal İdarəsi peşəkar içşi heyəti ilə bütün Qarabağ üzrə su və kanalizasiya xidmətinin təşkili və idarəolunmasının təminatçısıdır. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Qarabağa qayıdış istiqamətində yerli sakinlərin işlə təmin olunmasına da töhfə verib. İdarənin əməkdaşları yerli sakinlər arasından müsabiqə yolu ilə seçilib.***

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin mətbuat xidmətindən ”Unikal”a verilən məlumata görə, Xankəndi şəhəri işğaldan azad olunandan sonra düşmənin viran qoyduğu sukanal sahələrində bərpa işləri aparılıb.

Xankəndidə 2 Sutəmizləyici Qurğular Kompleksi fəaliyyətdədir. 1 Nömrəli Kompleksin içməli su mənbəyini Xəlfəli çayı, 2 Nömrəli Kompleksin su təchizatını Cəmilli və Ballıca kəndlərindən keçən çaylar təşkil edir. Şəhərdə 10 ədəd subartezian quyusu mövcuddur.

Su təmizləyici qurğular vasitəsilə suyun təmizlənərək şəhər şəbəkəsinə nəqli həyata keçirilir. Şəhər ərazisində su təsərrüfatı sahəsində təmir-bərpa işlərini sukanal sahəsinin peşəkar mühəndisləri və ustaları icra edirlər.

Xankəndi əhalisinin su təminatı sakinlərin rifahının yaxşılaşdırılmasına göstərilən yüksək xidmətin əsas tərkib hissəsidir.

30_27 IYUl-QARA.qxd 8/29/2024 10:03 PM Page 5



# Prezident Bilal Ərdoğanı qəbul etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib.***

"Unikal" xəbər verir ki, Bilal Ərdoğan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

Dünya Etnoidman Konfederasiyasının fəaliyyətini yüksək qiymətləndirən Azərbaycan Prezidenti əldə olunmuş uğurlar münasibətilə təbriklərini çatdırdı. Dövlətimizin başçısı ölkəmizin Konfederasiyada fəal təmsil olunduğunu bildirərək, Azərbaycan idmançılarının bu qurumun yarışlarında uğurla iştirak etdiklərini dedi.

Görüşdə ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin olduğu bir daha qeyd edildi, Azərbaycanın və Türkiyənin həmişə bir-birinin yanında olduqları vurğulandı.

# MSK sədri seçkilərin nəticələrinin nə zaman açıqlanacağını bildirdi

***Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinin nəticələrinin nə zaman açıqlanacağı barədə məlumat verib.***



"Unikal"ın xəbərinə görə, o, MSK-nın bugünkü iclasında diqqətə çatdırıb ki, səsvermə günü ilkin nəticələri operativ verməyə çalışırlar.

"Bu seçkilərdə də çalışacağıq ki, ilkin nəticələri həmin gecə çatdıraq. Bu ilkin nəticələr olacaq, yekun deyil. İki gün ərzində dairələrdən protokollar bizə veriləcək", - Məzahir Pənahov vurğulayıb.

# İlk dəfə səs verəcək seçicilər üçün xüsusi seçici kartları hazırlanıb

***İlk dəfə səs verəcək seçicilər üçün xüsusi seçici kartları hazırlanıb.***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında MSK sədrinin müavini Rövzət Qasımov deyib.O qeyd edib ki, ilk dəfə səs verəcək 374 seçici sentyabrın 1-də doğum gününü qeyd edəcək: "Onlara da xüsusi doğum günü kartları veriləcək".

R.Qasımov əlavə edib ki, görmə məhdudiyyətli seçicilər üçün xüsusi trafaretlər çap edilib və məntəqələrə paylanılıb.

MSK sədri Məzahir Pənahov isə öz növbəsində təklif edib ki, həmin kartlara MSK-nın xüsusi möhürü vurula bilər: "Bu, doğum günü kartlarının MSK-dan verildiyini xüsusiləşdirə bilər. Gərək bunu prezident seçkilərində də edərdik".




# İlham Əliyev BRİKS-ə dəvət olundu

***Azərbaycan Prezidenti İlham Əliyev BRİKS-in oktyabr sammitinə dəvət olunub.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov deyib.

O bildirib ki, Rusiya Federasiyası Azərbaycanın üzvlük müraciətini dəstəkləyir.

# Azərbaycanda ötən il 350-yə yaxın dövlət qulluqçusu cəzalandırılıb

***Dövlət qulluqçularının etik davranış qaydaları haqqında 2023-cü il üzrə hesabat hazırlanıb.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.

Bildirilib ki, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarının tələblərini pozan 341 dövlət qulluqçusu barədə intizam tənbeh tədbiri tətbiq edilib. Həmin intizam tənbeh tədbirlərindən 162-si mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumlarında, 179-u isə yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları barədə tətbiq edilib.

# MSK Ağ Partiyanın nümayəndələrini qeydə aldı

***2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərdə Ağ Partiyanın səlahiyyətli nümayəndələri qeydə alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında məsələ müzakirə olunub.

MSK katibi Arifə Muxtarova bildirib ki, Ağ Partiyanın 13 nəfər səlahiyyətli nümayəndəsi qeydə alınmaq üçün müraciət edib.

# Baş nazirin müavini Özbəkistana getdi

***Avqustun 29-da Özbəkistan Respublikasının Termez şəhərində "Termez" Beynəlxalq Ticarət Mərkəzinin rəsmi açılış mərasimi olub. Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti açılış mərasimində iştirak edib.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal"a bildirilib ki, tədbir çərçivəsində Ş.Mustafayev Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovla görüşüb.

Görüşdə bildirildi ki, Azərbaycan-Özbəkistan dostluq və qardaşlıq münasibətləri bu gün prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin uzaqgörən siyasəti, qarşılıqlı səfərləri və mütəmadi təmasları nəticəsində artan templə inkişaf etməkdədir.

Vurğulandı ki, Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 22-23-də Özbəkistana dövlət səfəri zamanı müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması iki ölkə arasında əlaqələrdə yeni səhifə açaraq, onları ən yüksək səviyyəyə qaldırıb.

Eyni zamanda, səfər əsnasında keçirilmiş Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şurasının birinci iclasında qəbul edilən qərarların əhəmiyyəti vurğulandı, dövlət başçıları tərəfindən verilən tapşırıqların yerinə yetirilməsi üçün iki ölkənin hökumətlərinin səylərinin birləşdirilməsinin zəruriliyi qeyd olundu.

Hərtərəfli strateji tərəfdaşlığın dərinləşdirilməsinə dair yeni beşillik Yol Xəritəsinin tərtib edilməsi və imzalanması dövlət başçıları tərəfindən qarşıya qoyulan mühüm vəzifələrdən biri kimi dəyərləndirildi.

Azərbaycan və Özbəkistan tərəfindən müxtəlif sahələrdə, xüsusilə investisiya, sənaye, kənd təsərrüfatı, nəqliyyat, neftqaz sahələrində həyata keçirilən birgə layihələrin uğurlu nəticələri təqdir edildi.

Azərbaycan Prezidentinin dövlət səfəri zamanı bir çox yeni istiqamətlər üzrə birgə layihələrə başlanılmasının əhəmiyyəti vurğulandı.

İki ölkə arasında iqtisadi-ticari əməkdaşlığın inkişaf dinamikasından məmnunluq ifadə olundu, cari ilin yanvar-iyul aylarında ticarət dövriyyəsinin 28 faiz artdığı bildirildi.

Eyni zamanda, nəqliyyat-tranzit sahəsində əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilərək, 2024-cü ilin ilk yarısında iki ölkə arasında tranzit daşımaların həcminin ötən ilin eyni dövrü ilə müqayisədə 37 faiz artdığı məmnunluqla qeyd olundu.

Yeni açılan "Termez" Beynəlxalq Ticarət Mərkəzinin ticarət əlaqələrinin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi baxımından əhəmiyyəti vurğulandı.

Səfər zamanı Şahin Mustafayev, həmçinin Əfqanıstanın Baş naziri vəzifəsini icra edən Əbdül Qani Baradarla görüşüb.

Görüşdə Azərbaycan ilə Əfqanıstanı tarixi və mədəni bağların birləşdirdiyi qeyd edildi.

Diqqətə çatdırıldı ki, Azərbaycan hər zaman həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində Əfqanıstanda sabitliyin və inkişafın təşviqinə, humanitar məsələlərin həllinə töhfə verib.

İki ölkə arasında ticarət-iqtisadi və sərmayə qoyuluşu sahələrində əlaqələrin perspektivləri müzakirə edildi, müvafiq əməkdaşlığın genişləndirilməsi ilə bağlı qarşılıqlı maraq ifadə olundu. Tərəflər, həmçinin nəqliyyat-tranzit sahəsində əməkdaşlıq imkanlarını nəzərdən keçirərək, "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin önəmini qeyd etdilər.

"Termez" Beynəlxalq Ticarət Mərkəzinin açılmasının Əfqanıstanla da ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinə töhfə verəcəyinə ümidvarlıq ifadə edildi.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Naxçıvanda yeni qurum yaradıldı

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalayıb.***




"Unikal" xəbər verir ki, fərmana əsasən, Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyi" publik hüquqi şəxs yaradılıb və nizamnaməsi təsdiq edilib.

Agentlik Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı sahəsində tənzimləməni, avtomobil nəqliyyatı ilə daşımalara və digər avtomobil nəqliyyatı xidmətlərinə ehtiyacın təmin edilməsini, muxtar respublikadaxili sərnişin və yük daşımalarına dair qayda və tələblərə, habelə bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət edilməsinə nəzarəti həyata keçirəcək.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Agentliyin nəzarət funksiyasını yerinə yetirən əməkdaşlarının xidməti geyim formasının, fərqləndirmə nişanlarının təsvirini və onların daşınması qaydasını təsdiq edəcək, həmçinin Ali Məclis sədrinin aktlarının həmin fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim edəcək. Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi fərmandan irəli gələn digər məsələləri həll edəcək.

30_27 IYUl-QARA.qxd 8/29/2024 10:03 PM Page 6



# YAP Mərkəzi Aparatında TDT-nin beynəlxalq müşahidə missiyasının üzvləri ilə görüş keçirildi



***Avqustun 29-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türk Dövlətləri Təşkilatı (TDT) müşahidə missiyasının rəhbəri, TDT baş katibinin müavini Ömer Kocaman və missiyanın digər üzvləri arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Ömer Kocaman TDT müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verib. Onun sözlərinə görə, Azərbaycanın demokratik seçki təcrübəsi 2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin də yüksək rəqabət şəraitində - azad, şəffaf və ədalətli keçirilməsinə zəmin yaradır.

Ömer Kocaman parlament seçkilərinin Azərbaycanın seçki təcrübəsinin daha da zənginləşməsinə və ölkənin inkişafına təkan verəcəyinə inamını ifadə edib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov TDT müşahidə missiyasının Azərbaycanda seçkilərin ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun keçirilməsinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. Azərbaycanın parlament seçkilərinə tam hazır olduğunu, bütün texniki və təşkilati məsələlərin yerinə yetirildiyini söyləyən Tahir Budaqov indiyədək seçki prosesinin gedişatı ilə əlaqədar hər hansı ciddi problemlərin olmadığını qeyd edib. YAP Sədrinin müavini bu seçkilərin Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa etməsindən sonra bütün ölkə ərazisində keçirilən ilk parlament seçkiləri olmasının əlamətdar və qürurverici olduğunu diqqətə çatdırıb.

Daha sonra Tahir Budaqov missiyanın üzvləri - Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun İdarə Heyətinin sədri, Türkiyə Respublikasının Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Aygün Attar, TDT Katibliyinin Özbəkistandan olan layihə direktoru Murodjon Mustofaev, TDT Katibliyinin Qazaxıstandan olan layihə direktoru Yerjan Mustafin və Qırğız Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü Altınbek Kubatbekovun Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıq çərçivəsində gördüyü işlər və seçki prosesinin gedişatına dair suallarını cavablandırıb.

TDT nümayəndələrinin seçkiləri müşahidə etməsinin türk dövlətləri arasında müsbət seçki təcrübəsinin mübadiləsi baxımından önəmini vurğulayan YAP Sədrinin müavini onlara fəaliyyətində uğurlar arzulayıb.

# Dövlət orqanlarında daxili müsahibələrin keçirilmə qrafiki müəyyən edildi

***Avqustun 7-də elan edilmiş daxili müsahibələrin keçirilmə qrafiki müəyyən olunub. Elan üzrə 36 dövlət orqanında mövcud olan 70 vakant vəzifə daxili müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 100 namizədlə 107 müsahibənin keçirilməsi planlaşdırılır.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən (DİM) məlumat verilib.

Ən yüksək müsahibə sayı Dövlət Statistika Komitəsi, Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsi, Statistik vahidlərin reyestrləri və inzibati məlumat mənbələri ilə iş, aparıcı məsləhətçi (1 vakant yer üzrə 19 nəfər) və Maliyyə Nazirliyi, Fövqəladə halların və qəzaların nəticələrinin aradan qaldırılmasına və infrastrukturun təkmilləşdirilməsinə dövlət dəstəyi sektoru, baş məsləhətçi (1 vakant yer üzrə 14 nəfər) vəzifəsi üzrə yaranıb.

Müsahibələrin sentyabrın 3-dən 23-dək keçirilməsi nəzərdə tutulur. Müsahibədə iştirak üçün qeydiyyatdan keçmiş namizədlər müsahibə vaxtı və yeri haqqında daha ətraflı məlumatı DİM-in saytından əldə edə bilərlər.

Nəzərə almaq lazımdır ki, müsahibələrin təşkili və keçirilməsi üçün DİM və dövlət orqanları tərəfindən kifayət qədər vəsait və resurslar sərf olunur. Mərkəz namizədlərin diqqətinə çatdırır ki, onların müsahibədə iştirak etməmələri üzrlü hal kimi qəbul olunmur, namizədlərin məsuliyyətsizliyi kimi xarakterizə edilir və belə hallar Mərkəzin məlumat bazasında qeydiyyata alınır.



Namizəd müsahibənin keçirilmə tarixindən bir gün əvvəl saat 16:00-dək müsahibələrin keçirilmə qrafikində şəxsi kabinetinin nömrəsini seçib açılan müraciət formasında "İMTİNA" düyməsini basmaqla müsahibədə iştirakdan imtina edə bilər. Namizədlərdən müsahibənin başlanma vaxtından azı 30 dəqiqə əvvəl müsahibələrin keçiriləcəyi binaya yaxınlaşmaları xahiş olunur.

# Mərkəzi Çağırış Komissiyasının tərkibinə daha 4 qurum əlavə olundu

***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Aparatında müddətli həqiqi hərbi xidmətə iyul çağırışının yekunları ilə bağlı Mərkəzi Çağırış Komissiyasının iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimovun sədrliyi ilə keçirilən iclasda Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamının icra vəziyyəti müzakirə olunub.



Dövlət Xidməti tərəfindən 2024-cü ilin iyul çağırışının uğurla icra edilməsi və Silahlı Qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə keyfiyyətlə komplektləşdirilməsi məqsədilə zəruri işlərin görüldüyü diqqətə çatdırılıb.

Qeyd edək ki, Mərkəzi Çağırış Komissiyasının tərkibinə daha 4 yeni dövlət qurumu (Dövlət Təhlükəsizliyi Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Xarici İşlər Nazirliyi) əlavə olunmaqla, üzvlərin sayı 14-ə çatıb.

İclasın sonunda gündəlikdə olan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.



# MİQ üzrə müddətli müqavilə ilə vakansiya seçiminə başlanılır

***30 avqust saat 11:00-dan etibarən müddətli müqavilə ilə müəllimlərin işə qəbulu üzrə müsabiqənin vakansiya seçimi mərhələsinə start veriləcək.***

Bu barədə "Unikal"a Təhsil İnstitutundan məlumat verilib.

Bildirilib ki, vakansiya seçimi test imtahanında ümumtəhsil proqramı üzrə minimum 34 bal və tədris metodikası üzrə minimum 6 bal olmaqla, ümumi 40 bal və daha yüksək nəticə göstərən namizədlər vakant yerlərin seçiminə buraxılır.

Qeyd edilib ki, müddətli müqavilə ilə vakansiya seçimi zamanı namizədlər 4 vakant yer seçə bilərlər. Namizədlər 2 sentyabr saat 11:00-dək şəxsi səhifələrinə daxil olaraq vakant yer seçməli və elektron ərizələrini təsdiq etməlidirlər.

# Nazirlikdən əhaliyə çağırış

***Balıqların kürüləmə dövrü ilə əlaqədar sənaye balıq ovuna tətbiq edilən moratoriumun müddəti sentyabrın 1-də bitir.***

"Unikal" xəbər verir ki, bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumat yayıb.

Dövlət Ekoloji Təhlükəsizlik Xidməti və Su Nəqliyyatında Polis İdarəsi sənaye balıq ovu ilə məşğul olmaq istəyən vətəndaşların nəzərinə çatdırıb ki, balıq ovlayarkən yalnız qanunvericiliklə qadağan olunmayan ov alətlərindən istifadə olunmalı, kimyəvi, zəhərli və partlayıcı maddələrdən, eyni zamanda qanunla qadağan olunmuş sintetik tor, elektrik cərəyanı, itiuclu qarmaq kimi ov alətlərindən istifadə edilməməlidir:

"Balıq və digər su bioresurslarının ov qaydalarının pozulmasına, o cümlədən qanunsuz tutulmasına görə təqsirkar şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar", - deyə məlumatda qeyd olunub.

# HDQ dəniz piyadalarının təlimi keçirilir

***2024-cü ilin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrinin (HDQ) dəniz piyada bölmələrinin şəxsi heyəti ilə dağçılıq təlimi keçirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən bildirilib. Təlimin ssenarisinə uyğun olaraq, çətin relyefli şəraitdə qrupların hərəkəti sərt qayalıqlardan eniş, çayların və göllərin keçilməsi, həmçinin əlverişsiz relyefdə yaralıların təxliyəsi üzrə epizodlar icra olunur.

Qeyd edilib ki, təlimin keçirilməsində əsas məqsəd şəxsi heyətin döyüş hazırlığını müasir tələblərə uyğunlaşdırmaq, dövrün tələblərinə uyğun döyüşaparma və özünümüdafiə bacarıqlarının nəzəri və praktiki əsaslarını mənimsəməkdir.

30_27 IYUl-QARA.qxd 8/29/2024 10:03 PM Page 7





## Seçicilərə qeydiyyatdan çıxma vəsiqəsinin verilmə müddəti başa çatıb

***Növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçiciyə müvafiq məntəqə seçki komissiyası tərəfindən qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin verilməsi müddəti başa çatıb.***

"Unikal" xəbər verir ki, bu, Mərkəzi Seçki Komissiyasının "Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nda öz əksini tapıb.

Qanunvericiliyə əsasən, məntəqə seçki komissiyaları tərəfindən qeydiyyatdan çıxma vəsiqəsinin verilməsi səsvermə gününə 3 gün qalanadək həyata keçirilməlidir.

Təqvim Planında bu müddət 2024-cü il avqustun 8-dən 29-dək müəyyən edilib.

Xatırladaq ki, Prezident İlham Əliyev iyunun 28-də altıncı çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib.

## Türkiyə-Azərbaycan Universitetinin tələbələrinin iki diplomu olacaq

***Türkiyə-Azərbaycan Universitetinin (TAU) tələbələri ali məktəbi bitirdikdə iki diplomları olacaq.***



Bunu "Report"un Ankara bürosuna müsahibəsində Hacettepe Universitetinin rektoru professor Dr. Mehmet Cahit Güran deyib.

Qeyd edək ki, TAU-da qida mühəndisliyi ixtisasında Hacettepe Universitetinin təhsil proqramları əsas götürüləcək. Onun sözlərinə görə, qarşılıqlı şəkildə diplomlar hər iki ölkədə tanınacaq. "Həmin məzunların Türkiyədə YÖK-ün diplom tanınma prosesindən keçməsinə ehtiyac qalmayacaq", - rektor deyib.

Onun sözlərinə görə, Hacettepe Universitetinin müəllim heyəti tələbələrə Ankaradakı Beytepe və Sihhiyede yerləşən korpuslarında hansı keyfiyyət və standartda dərs tədris edirsə, eyni keyfiyyət və standartda da TAU-dakı tələbələrinə təhsil verəcək.

# "Yeni qurum cəmiyyəti narahat edən məsələlərlə məşğul olmalıdır"

## Xalid Kərimli: "Ümid edirik ki, bu orqan orada nəzərdə tutulan mandata uyğun olaraq fəaliyyətini quracaq, obyektivliyi təmin edə biləcək"



***Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı fərmanla İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsasında Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılıb.***

Müəyyən edilir ki, Agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. İqtisadçı-ekspert Xalid Kərimli "Unikal"a müsahibəsində bu barədə fikirlərini bölüşüb. O, Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılmasının əhəmiyyətindən, minimum əməkhaqqının nə qədər artırıla biləcəyindən, növbəti illərdə manatın məzənnəsinin necə dəyişəcəyindən və insanların pullarını kartda yoxsa evdə saxlamasından danışıb.

***-Xalid bəy, öncə ondan başlayaq ki, yeni dövlət qurumunun yaradılması nələri dəyişəcək?***

-Yeni dövlət qurumu Rəqabət Məcəlləsinə əsasən formalaşdırılır. Rəqabət Məcəlləsində yeni rəqabət orqanının statusu müəyyən edilib. Bunun əsasında dövlət başçısının fərmanı ilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti yenidən formalaşdırılır. Bu qurum fəaliyyətini Rəqabət Məcəlləsi əsasında quracaq. Hətta İqtisadiyyat Nazirliyinə bərabər quruma çevrilir və böyük səlahiyyətləri var. Belə ki, bu qurumda təşkilatları yoxlamaq, onların sənədlərinə baxış, bazarlara nəzarət etmək, inhisarçı, hökmran mövqedə olan şəxslərin müəyyənləşdirilməsi və onların fəaliyyətinə nəzarət edilməsi, uyğunlaşdırılmış, razılaşdırılmış fəaliyyətlərin nəticələrinin aradan qaldırılması, cəmiyyətə vurulmuş zərərlərin aradan qaldırılması, şaquli, üfüqi razılaşmalara nəzarət edilməsi kimi məsələlər var. Neçə illərdir deyirik ki, süni qiymət formalaşır və s. Süni qiymət inhisarçının və yaxud razılaşdırılmış şəkildə fəaliyyət göstərən oliqapolistlərin təyin etdikləri qiymətlərdir. Bu baxımdan, yeni qurum cəmiyyəti narahat edən məsələlərlə məşğul olmalıdır. Amma bunun nə cür fəaliyyət göstərməsi əhəmiyyətlidir. İndiyə qədər də qanunvericilik var idi və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti fəaliyyət göstərirdi. Amma çox bərbad və qeyri-effektiv fəaliyyəti var idi. Yeni qanunvericilik müasirdir və ümid edirik ki, onun əsasında fəaliyyətini quracaq orqan orada nəzərdə tutulan mandata uyğun olaraq işini quracaq, obyektivliyi təmin edə biləcək, özünə nüfuz yaradacaq təsərrüfat subyektlərinin, cəmiyyətin maraqlarına zidd olan razılaşdırılmış, uyğunlaşdırılmış razılaşmaları, hökmran mövqedən istifadə edərək süni şəkildə qiyməti, istehsal həcmini formalaşdırmaq, digərlərini sıradan çıxarmaq kimi hallara qarşı fəaliyyət göstərəcək.

***-Məlum olduğu kimi, Azərbaycanda minimum əməkhaqqının artırılması ilə bağlı təkliflər hazırlanır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə bu il noyabrın 1-dək minimum əməkhaqqının artırılması ilə bağlı təklifləri hazırlayaraq adiyyəti üzrə təqdim etməsi tapşırılıb. Minimum əməkhaqqının nə qədər artırılacağını düşünürsüz?***

-Düşünürəm ki, 10-15 faizlik artım gözləyə bilərik. Amma bu o qədər də asan proses deyil. Hökumət ilin əvvəlindən nazirlikdən bu haqda araşdırma aparıb təklif verməsini istəyib. Bu qanunun əhatə dairəsi tək dövlət sektoru deyil, iqtisadiyyatda bütün işverənləri əhatə edir. Bu, həm inflyasiyaya təsir göstərəcək addımdır, həm də əmək bazarında qiymətləri dəyişən haldır. Həmçinin, buna paralel olaraq özəl sektor bu artımı qarşılaya biləcək gücdə olmalıdır. Yəni, işçilərin yenidən müqaviləsiz fəaliyyətinin təşkil edilməsi fikirlərinə düşməli deyillər. Ona görə də çalışırlar ki, minimum əməkhaqqını kifayət qədər əsaslı şəkildə artırsınlar. Bu zaman inflyasiya məsələləri diqqətdə olacaq. Ötən il 8,8 faiz inflyasiya var idi. Bu il isə 4 faiz ətrafında gözlənilir. Güman edirəm ki, inflyasiya nəzərə alınacaq və minimum əməkhaqqı 10-15 faiz intervalında olacaq. Bu qərar tək dövlətin maliyyə yükünü artırmır. Eyni zamanda, özəl sektor üçün məcburi normativ yaradır. Buna görə də detallı surətdə analiz edilir.

***-Hazırda dolların manat qarşısında bahalaşması üçün ciddi əsaslar yoxdur. Neft-qaz qiymətləri yüksəkdir, ixrac idxalı üstələyir və s. Qarşıdakı illərdə dolların manat qarşısında məzənnəsi necə dəyişə bilər?***

-Bu ilin sonuna qədər manatın dollar qarşısında ucuzlaşmasını ehtimal etmirəm. Bütün bunların hamısı Mərkəzi Bankın səlahiyyətində olan məsələdir. Belə ki, manatın məzənnəsini Mərkəzi Bank təyin edir. Hazırda Azərbaycanın tədiyyə balansı profisitlidir. Əsas ixrac resurslarının qiyməti ölkə üçün konfortludur, proqnozlaşdırılan qiymətlərdən daha üstündür. İxrac gəlirləri idxal xərclərini üstələyir. Ölkədən valyuta axını müşahidə edilmir. Mərkəzi Bankın rezervləri stabil şəkildə artır. Bu onu göstərir ki, Mərkəzi Bankın valyuta bazarına təsiri alış yönündədir ki, valyuta bolluğu olmasın. Hazırkı dönəmdə manat üzərində təzyiq mövcud deyil. Buna görə də Mərkəzi Bankın könüllü şəkildə indiki məqamda devalvasiyaya gedəcəyini düşünmürəm. Növbəti illərdəki proseslər ölkənin idxal vəziyyətindən və neftin dünya bazar qiymətlərindən asılı olacaq. Əgər neft-qaz qiymətləri kəskin aşağı düşəcəksə, uzunmüddətli dönəmdə bu cür qalacaqsa, bu zaman Mərkəzi Bank təzyiq altına düşəcək. İndiki məqamda belə perspektivlər olmadığı üçün Azərbaycan Mərkəzi Bankının könüllü şəkildə devalvasiya planlaşdırdığını düşünmürəm.

***-Son vaxtlar kibercinayətkarlar tərəfindən insanların kart məlumatlarının ələ keçirilərək pul vəsaitlərinin oğurlanması halları artıb. Bu baxımdan, insanlar pullarını daha çox kartlarda, yoxsa evdə saxlamağa üstünlük verirlər?***

-İnsanlar pullarını həm evdə, həm də kartda saxlayırlar. Son zamanlar isə daha çox kart və banklarda saxlamağa üstünlük verirlər. Bu həm də nağdsız hesablaşmaların genişlənməsi, eyni zamanda nağdsız ödənişlərin bir sıra üstünlüklər gətirməsi, insanların həyatlarını rahatlaşdırması, mağazaların, iaşə obyektlərinin terminallaşdırılması ilə bağlıdır. Həmçinin, nağdsız ödəniş qəbul edə bilməsinə görə getdikcə kartlarda, bank hesablarında vəsait saxlamaq həcmi çoxalır. Təbii ki, insanlar pulu evdə saxlayanda da ehtiyatlı olmalı, təhlükəsizlik məsələlərini nəzərə almalıdır. Evdə pul saxlamaq məqsədəuyğun deyil.Pullarını nağd saxlamaq istəyənlər, bankda kirayə seyf götürüb ora qoya bilər. Kartda saxlamaq daha etibarlıdır. Amma kartdan istifadə zamanı, onlayn ödəmələrdə diqqətli olmaq lazımdır. Amma insanlar riskli məsələlərə getməli deyillər. Məsələn, lotoreya oynanılır, hədiyyə düşür və s. kimi linklərə qarşı diqqətli olmaq lazımdır. Kart məlumatlarını fake saytlara, dələduzlara ötürməli deyillər. İnsanlar diqqətli və ehtiyatlı olmalıdırlar.

***Anar Kəlbiyev***

# Monopolistlərə son zərbə:

## Dövlətin yeni antiinhisar mübarizəsi başlayır

Rəqabət Məcəlləsinin qüvvəyə minməsinin ardından inhisarçılığa qarşı həlledici həmlə: Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi niyə yaradıldı?

***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra - Xidmət) əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra - Agentlik) yaradılıb. Bununla bağlı yola salmaq üzrə olduğumuz həftə Prezident İlham Əliyev Fərman imzalayıb.***

Agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır;

əsasnaməsi, strukturu və işçilərinin say həddi təsdiq edilənədək Agentlik Xidmətin mövcud əsasnaməsi, strukturu, işçilərinin say həddi, vəzifə maaşları, əməyin ödənilməsi sistemi tətbiq edilməklə fəaliyyət göstərir;

Xidmətin regional bölmələri və strukturuna daxil olmayan tabeliyindəki qurumlar Agentliyin əsasnaməsi və strukturu təsdiq edilənədək mövcud əsasnamələri (nizamnamələri) əsasında Agentliyin regional bölmələri və strukturuna daxil olmayan tabeliyindəki qurumlar kimi fəaliyyətlərini davam etdirirlər.

Nazirlər Kabineti Agentliyin əsasnaməsinin layihəsini, strukturu və işçilərinin say həddi barədə təkliflərini iki ay müddətində, normativ hüquqi aktların uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, Xidmətin balansında olan dövlət əmlakının Agentliyin balansına verilməsini təmin etməli, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanında Xidmət üçün nəzərdə tutulmuş maliyyələşmənin qalıq hissəsinin Agentliyə ayrılmasını təmin etmək üçün tədbirlər görməli, bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Ekspertlər Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılmasını monopolizmə qarşı mübarizə baxımından çox ciddi hadisə kimi qiymətləndirirlər. Məsələ burasındadır ki, ötən ayın 1-dən etibarən Rəqabət Məcəlləsi qüvvəyə minib. Həmin qanunun qəbulu ölkədə inhisarçılığa qarşı mübarizə istiqamətində mühüm addım kimi dəyərləndirilir və belə bir mülahizə irəli sürülürdü ki, indi əsas məsələ sözügedən Məcəllənin müddəalarına necə əməl ediləcəyi, icra olunub-olunmayacağıdır. Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılması məhz bu kontekstdə xüsusi önəmə malikdir. Bu o deməkdir ki, antiinhisar tədbirləri, o cümlədən, Rəqabət Məcəlləsinin işləkliyi bundan sonra Prezidentin birbaşa nəzarətində olacaq. Belədə isə ölkə iqtisadiyyatının "qara yaralarından" birinə çevrilmiş monopolizmin tezliklə böyük ölçüdə aradan qaldırılacağına inam qüvvətlənir.

Xatırladaq ki, indiyə qədər inhisarçılıqla mübarizə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən həyata keçirilirdi. Lakin bir sıra iri məmurlar, oliqarxlar əllərindəki təsir imkanlarından istifadə edərək adı çəkilən qurumun normal fəaliyyətini əngəlləməyi bacarırdılar. Bir az da konkretləşdirsək, onlar sözügedən Dövlət Xidmətini əksər hallarda saymır, "Burda mənəm, bağdadda kor xəlifə" prinsipi ilə hərəkət edirdilər. Nəticə etibarilə Azərbaycanda monopolizmi tarixin arxivinə göndərmək müşkül, hətta mümkünsüz məsələ kimi görünürdü.

İndi isə monopoliyaya qarşı mübarizənin birbaşa ölkə rəhbərinin nəzarəti altında həyata keçiriləcəyini nəzərə alsaq, gedişatın inhisarçılar üçün ürəkaçan olmayacağını təxmin etmək çətin deyil. Öncə Rəqabət Məcəlləsinin qəbulu və qüvvəyə minməsi, ardınca isə Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılması ölkəmizdə monopolizmin "qürubunun" sürətlə yaxınlaşmasından xəbər verir. Əlbəttə, ölkə iqtisadiyyatında onillər boyunca dərin kök salmış bir problemin qısa müddətdə həllini gözləmək sadəlövhlük olardı. İnhisarçılığın ləğvi üçün görülməli çox iş var. Elə əksər mütəxəssislər, məsələn, vəkil, bank məsələləri üzrə ekspert Əkrəm Həsənov da eyni fikirdədir. O bildirib ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Xidmətini çoxdan müstəqil quruma çevirmək lazım idi: "Çünki Azərbaycanın əksər dövlət şirkətləri İqtisadiyyat Nazirliyinə tabedir. Bu şirkətlər də, bir növ, təbii inhisarçılardır. İkincisi də, bütün dövlət satınalmalarına nəzarəti də İqtisadiyyat Nazirliyinin tərkibində olan həmin qurum həyata keçirirdi".Ekspert əlavə edib ki, yeni agentliyin yaranması müsbət haldır: "Amma agentlik bir günə nəyisə dəyişməyə başlamayacaq".



Beləliklə, hadisələrin inkişafı Azərbaycanda müəyyən müddətdən sonra "monopoliyasız iqtisadiyyat"ın ortaya çıxacağını söyləməyə əsas verir. Həlledici həmlələr edildi - müvafiq qanunverici sənəd (Rəqabət Məcəlləsi" qüvvəyə mindi, məhz Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradıldı", indi qalır yeni qurumun əməli fəaliyyətə başlaması və həm ölkə rəhbərliyinin, həm sahibkarların, iş adamlarının, həm də bütövlükdə xalqın etimadını, gözləntilərini doğrultması!

***Sənan Mirzə***



# Bakıda I sinfə qəbulla bağlı 40 383 sorğu yerləşdirilib

***Avqustun 29-na (saat 11:30) olan məlumata əsasən, paytaxt məktəblərinin birinci sinfinə 40 383 uşaq üçün elektron sistem (https://mektebeqebul.edu.az/) vasitəsilə sorğu yerləşdirilib.***

Bu barədə "Unikal"a Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib.

Bildirilib ki, paytaxt məktəblərinin birinci siniflərinə elektron qeydiyyat prosesi ilə bağlı valideynlər tərəfindən ünvanlanan 6 791 müraciət operativ şəkildə cavablandırılıb. Daxil olan müraciətlərdən 2 485-i alternativ qeydiyyat mərkəzlərində, 2 970-i sistemin "Əlaqə" bölməsi vasitəsilə cavablandırılıb və valideynlərə müvafiq dəstək göstərilib. 1 336 valideyn isə 5, 6 və 7 saylı "ASAN xidmət" mərkəzlərinin təhsil xidmətləri bölməsinə müraciət edib.

Qeyd edilib ki, 2024-2025-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə elektron qeydiyyat sentyabrın 13-nə qədər davam edəcək. www.mektebeqebul.edu.az sistemi vasitəsilə özü elektron qeydiyyatdan keçə bilməyən və ya internet resurslarına çıxış imkanı olmayan vətəndaşlar aidiyyəti ərazi üzrə fəaliyyət göstərən ən yaxın alternativ qeydiyyat mərkəzinə (https://baku.edu.gov.az/az/page/276), eləcə də 5, 6 və 7 saylı "ASAN xidmət" mərkəzlərinin təhsil xidmətləri bölməsinə müraciət edə bilərlər.

Vətəndaşlara alternativ qeydiyyat mərkəzlərində həftənin I-V günləri saat 10:00-dan 17:00-a qədər xidmət göstərilir. Valideyn alternativ qeydiyyat mərkəzlərinə müraciət edərkən övladını özü ilə aparmasına ehtiyac yoxdur.

Sistemdə elektron qeydiyyatdan keçə bilməyən valideynlərə "WhatsApp" vasitəsilə (070-996-76-63, 070-996-36-62, 070-996-46-68) müraciətlərinin cavablandırılması üçün müvafiq işçi qrupları tərəfindən də zəruri köməklik göstərilir.

# Azərbaycan həbsxanalarında ömürlük cəza çəkən 14 əcnəbi var - RƏSMİ

***Azərbaycandakı cəzaçəkmə müəssisələrində ABŞ, Banqladeş, Belarus, Çin, Əfqanıstan, Əlcəzair, Ermənistan, Gürcüstan, Hindistan, İran, İraq, Konqo, Nigeriya, Livan, Maldiv, Mərakeş, Qvineya, Misir, Özbəkistan, Pakistan, Şri-lanka, Sudan, Tacikistan, Türkiyə, Türkmənistan, Oman, Rusiya və Ukrayna vətəndaşları var.***

"Unikal" xəbər verir ki, bunu Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Hüquq şöbəsinin rəisi, ədliyyə polkovniki Ziya Dadaşov "Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsi" mövzusunda seminarda deyib.

O qeyd edib ki, həmin əcnəbilər arasında ömürlük cəza çəkən şəxslər də var: "Onların 4-ü vətəndaşlığı olmayan, 4-ü Rusiya, 4-ü Gürcüstan, 1-i Qazaxıstan, 1-i İran vətəndaşlarıdır".

# Müsavatdan Nəsiman Yaqublu ilə bağlı açıqlama

Gülağa Aslanlı: "İnanırıq ki, əsl səbəb üzə çıxacaq!"



***"Professor Nəsiman Yaqublunun uğradığı yol qəzasının əsl səbəbinin məlum olacağına inanmaq istəyirik".***

Bunu Modern.az-a açıqlamasında Müsavat Partiyası sədrinin müavini Gülağa Aslanlı bildirib.

"Namizədlərimizdən biri olan professor Nəsiman Yaqublu müəmmalı şəkildə dünyasını dəyişdi. İnanmaq istəyirik ki, hüquq-mühafizə orqanları bu yol qəzasının əsil səbəbini ortaya qoya biləcəkdir".

Xatırladaq ki, tarixçi alim, Bakı Dövlət Universitetinin professoru, Müsavat Partiyasının 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsindən deputatlığa namizədi Nəsiman Yaqublu avqustun 25-də seçicilərlə görüşdən Bakıya qayıdarkən Cəbrayıl rayonu ərazisində yol qəzasına düşərək həyatını itirib. Mərhumun maşında tək olduğu bildirilir.

## Bakıda qanunsuz fəaliyyət göstərən çiy dönər emalı müəssisəsi aşkarlandı



***Bakı şəhəri, Binəqədi rayonu, Goradil bağları ünvanında fəaliyyət göstərən, fiziki şəxs Məmmədov Əfşan Fazil oğluna məxsus çiy dönər emalı müəssisəsində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən keçirilmiş plandankənar yoxlama zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların, sanitariya norma və qaydalarının tələblərinin pozulduğu müəyyən edilib.***

"Unikal" AQTA-ya istinadən xəbər verir ki, müəssisənin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi məlum olub. Həmçinin müəssisədə sanitar-texniki vəziyyətin qənaətbəxş olmadığı, texnoloji ardıcıllıq prinsipinə riayət edilmədiyi, emal prosesinin və ləvazimatların yuyulmasının eyni sahədə həyata keçirildiyi, xammalların saxlanması üçün sahələrin ayrılmadığı, müəssisənin giriş qapısının birbaşa emal sahəsinə açıldığı, havalandırma sisteminin quraşdırılmadığı, istifadə olunan avadanlıqların tamlığının pozulduğu, mütəmadi olaraq müvafiq təmizlik işlərinin görülmədiyi, temperaturun monitorinq və qeydiyyatının aparılmadığı, tullantılar üçün ağzı kip, qoxu yaymayan qabların təşkil edilmədiyi, işçi heyətin tibbi müayinədən keçmədiyi, xüsusi geyimlə təmin edilmədiyi və gigiyenik təlimlərə cəlb olunmadığı və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı müəssisə rəhbərliyi barəsində inzibati protokol tərtib olunub və məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilərək müəssisədə çiy dönər istehsalı və qida məhsullarının emalı üzrə işlərin görülməsi, xidmətlərin göstərilməsi dayandırılıb.

## Əhali ayda neçə kq ət istehlak edir?



***Ötən il Azərbaycanda bütün növ ət və ət məhsullarının illik istehlakı adambaşına 43.5 kiloqram olub. Bu isə 2022-ci illə müqayisədə 1.4 kiloqram çoxdur.***

"Unikal" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, ötən il ölkədə adambaşına 16.9 kq mal əti, 9.2 kq qoyun və keçi əti, 1 kq donuz əti, 16.4 kq quş əti istehlak edilib.

Beləliklə, Azərbaycanda ayda adambaşına 2.3 kq mal və qoyun əti, 1.4 kq isə quş əti yeyilib.

Qeyd edək ki, hesabat dövründə 258.8 kq süd və süd məhsulları, 189 ədəd yumurta, 8 kq isə balıq əti istehlak edilib.

Xatırladaq ki, bu dövrdə Azərbaycanda özünü təminetmə səviyyəsi, bütün növ ət və ət məhsulları üzrə 85.3%, süd məhsulları üzrə 84%, yumura üzrə 102.2%, balıq və balıq məhsulları üzrə isə 75.4% olub.

# Cahangir Əsgərova on milyonlarla manatlıq şok...

AZAL-ın sabiq "şef"inin ailə bankında nə baş verir?

***"Premium Bank" ASC bu ilin I yarısında müştərilərə 471 milyon 853 min manat kredit verib. Bu barədə bankın maliyyə hesabatından məlum olub.***

Hesabatda göstərilib ki, həmin rəqəm 2023-cü ilin sonu ilə müqayisədə 0,02 % və ya 13 min manat azdır. Bankın 2023-cü ilin sonunda verdiyi kreditlərin həcmi 471 milyon 866 min manat təşkil edib.

2024-cü ilin birinci yarısında "Premium Bank" 25 milyon 862 min manat istehlak krediti verib ki, bu da 2023-cü ilin sonu ilə müqayisədə 34,3 % və ya 6 milyon 614 min manat çoxdur.



"Premium Bank" cari ilin hesabat dövründə müştərilərə 374 milyon 500 min manat biznes krediti verib ki, bu da 2023-cü ilin sonu ilə müqayisədə 11 milyon 138 min manat və ya 2,8 % azdır. 2023-cü ilin sonunda bankın verdiyi biznes kreditlərinin həcmi 385 milyon 638 min manat olub.

Bankın daşınmaz əmlak kreditlərinin həcmi 6,7 % artaraq 71 milyon 491 min manata çatıb. 2023-cü ilin sonunda bankın daşınmaz əmlak kreditlərinin həcmi 66 milyon 979 min manat olub.

"Premium Bank"ın bu ilin I yarısında aktivlərinin həcmi 647 milyon 308 min manat olub. Bu da, 2023-cü ilin sonu ötən il bankın aktivləri 1% və ya 7 milyon manat azalaraq 685 milyon 116 min manat təşkil edib.

Eyni dövrdə "Premium Bank"ın cəmi öhdəlikləri 507 milyon 823 min manat təşkil etmişdi ki, bu da illik müqayisədə 0.4% və ya 1.8 milyon manat az idi. Hesabat dövründə bankın depozit portfeli də 8.5% və ya 39.7 milyon manat azalaraq 426 milyon 770 min manata enmişdi. Fiziki şəxslərin depozitləri əvvəlki illə müqayisədə 2.9% və ya 9.8 milyon manat azalaraq 330 milyon 857 min manat, hüquqi şəxslərin depozitləri isə 23.8% və ya 29.9 milyon manat azalaraq 95 milyon 913 min manat təşkil etmişdi. Sözügedən statistikada xüsusilə şirkətlərin "Premium Bank" ilə müqayisədə 5,5 %, yaxud da 37 milyon 808 min manat azdır.

Xatırladaq ki, adıçəkilən bank "Azərbaycan Hava Yolları"(AZAL) Qapalı Səhmdar Cəmiyyətinin sabiq prezidenti Cahangir Əsgərovun ailə şirkəti sayılır. Belə ki, onun həyat yoldaşı Zərifə Həmzəyeva nizamnamə kapitalı 154 milyon 601 min 370 manat olan "Premium Bank" ASC-nin səhmlərinin 84,48%-nə sahibdir.

Bu ilin əvvəlində məlum olmuşdu ki, 2023-cü ildə "Premium Bank" kiçilib. Belə ki, dan 30 milyon manatı geri çəkməsi maraq doğururdu.

2023-cü ildə əməliyyat mənfəəti 29% azalan "Premium Bank"la bağlı daha bir statistika da düşündürücü idi: 2024-cü il yanvar ayının 1-nə onun cəmi kapitalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.9% və ya 5.2 milyon manat azalaraq 177 milyon 293 min manat təşkil etmişdi.

Cahangir Əsgərovun sözügedən ailə şirkəti ilə bağlı daha bir diqqətçəkən məqam: 2024-cü ilin ilk rübündə "Premium Bank" da vaxtı keçmiş kreditlərin məbləği kəskin artmışdı. 1-ci rübün sonuna bankda vaxtı keçmiş kreditlərin məbləği isə 6 milyon 238 min manat təşkil etmişdi. Bu isə ilin əvvəli ilə müqayisədə 935 min manat, yəni 17,6% çoxdur.

Vaxtı keçmiş kreditlərin ümumi portfeldəki çəkisinin isə 1% təşkil etdiyi aydınlaşmışdı.

Cahangir Əsgərov vəzifədən getdikdən bir müddət sonra bəzi KİV-lərdə aktivlərin, əməliyyat mənfəətlərinin və s. azalması, problemli kreditlərin isə artması əsas gətirilərək "Premium Bank"ın bağlanma ehtimalı ilə bağlı xəbərlər yayılmışdı. Həmin vaxt yerli mediaya açıqlama verən bank məsələləri üzrə ekspert Əkrəm Həsənov bunu inandırıcı saymasa da, maraqlı fikirlər səsləndirmişdi. "Mən güman edirəm ki, bu söz-söhbətin əsas səbəbi Cahangir Əsgərovun AZAL rəhbərliyindən uzaqlaşdırılmasıdır. Əsgərov vəzifəsiz qaldıqdan sonra hamı fikirləşir ki, onun hər şeyi əlindən alınacaq. Mən inanmıram ki, "Premium bank" bağlanacaq, çünki bu bankdakı problemlərin hamısını dəqiqliklə bilmirik. Məlumatı daha dəqiq Mərkəzi Bank bilir. Amma banklar barəsində məlumatlı olan biri olaraq deyə bilərəm ki, "Premium Bank"da vəziyyət bərbaddır, lakin ondan qat-qat pis vəziyyətdə, ağır vəziyyətdə olan banklar var. "Premium Bank" elə də pis vəziyyətdə, ən pis banklar sırasında deyil. Azərbaycanda o qədər elə banklar olub ki. Sadəcə həmin bankların sahibi dəyişdirilib" - ekspert bildirmişdi.

***Sənan Mirzə***

30_27 IYUI-QARA.qxd 8/29/2024 10:03 PM Page 10



# Elman Rüstəmovun biznesi təhlükədə

## Sabiq baş bankirin şirkətləri əlindən çıxır? - Sensasion iddialar...

***Ötən həftə mediada maraq doğuran bir məlumat yayıldı. Həmin məlumatda bildirilirdi ki, "Səba" ASC-nin tərkibindəki "Səba Broyler" istehsalı və satışı dayandırıb.***

Qeyd olunurdu ki, şirkət avqustun 1-dən istehsalı dayandırıb: "Hələ ki, işçilərin və şirkətin taleyi ilə bağlı dəqiq bir qərar yoxdur. Sadəcə satış məntəqələri bağlanıb, istehsal dayanıb. İşçilərin bəziləri işdən ayrılıb". Bu xəbərin yayılmasından saatlar sonra adıçəkilən şirkət bağlanması ilə bağlı yayılan məlumatlara aydınlıq gətirdi. Adıçəkilən ASC-dən KİV-ə daxil olan məlumatda deyilirdi ki, reallıqda "Səba" markası ilə toyuq əti və məhsullarının istehsalı dayandırılmayıb. Bu istehsalı "Səba" ASC-nin yaratdığı "Chiken Pro" MMC həyata keçirir.

"MMC-rəhbərliyindən verilən məlumata görə, istehsal müəssisəsinin yenidən qurulması, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi üçün zəruri investisiya qoyuluşu həyata keçiriləcək" - şirkətdən verilən məlumatda vurğulanırdı.

Bəs "Səba"nın tərkibindəki "Səba Broyler"in bağlanması ilə qəfil ortaya atılan iddiada maraq doğuran nədir?

Məsələ burasındadır ki, "Səba "nın aktivləri Hidayət Quliyev (37,5%), Natiq Quliyev (37,5%) və Azərbaycan İnvestisiya Holdinqinə (25%) məxsusdur. Quliyevlərin isə Mərkəzi Bankın sabiq sədri Elman Rüstəmovun xalası oğlanları olduğuna dair indiyədək KİV-də dəfələrlə məlumat yayılıb.

Hətta adları çəkilənlərdən Natiq Quliyev mediada sabiq baş bankirin "sağ əli" kimi qələmə verilir. Bildirilir ki, o, Rüstəmovun şəxsi biznesinin idarəçisidir, "Səbar" ASC, "Biləsuvar Aqro", "Qarabağ Taxıl" və "Bakı Sığorta" şirkətlərinin əsas səhmdarıdır, həmin şirkətlər isə Elman müəllimin nəhəng "biznes imperiyası"nın bir hissəsidir.

Əslində Natiq Quliyevin digər qardaşları - Elçin və Namiq Quliyevlər də Rüstəmovun Azərbaycanda müxtəlif sahələrə aid biznesini idarə edirlər. Söhbət "Bank Respublika"dan, "Planet" şadlıq sarayından, bir sıra məşhur avtomobil istehsalçılarının Azərbaycandakı distribüterliyindən (bura ilk növbədə Yaponiyanın məşhur "Mitsubishi", "Subaru", "Toyota" avtomobilləri aiddir; həmin markalar satış sayına görə ölkənin avtoparkında birinci onluqda yer alır və əsas müştəriləri yerli və xarici şirkətlər, səfirliklərdir) və s. gedir.

Bir sözlə, 27 illik baş bankirliyi boyunca Rüstəmov özünə kifayət qədər böyük biznes şəbəkəsi yaratmağı bacarmışdır. Elman müəllim Mərkəzi Bankın rəhbəri postunu itirdikdən sonra isə çoxlarını bir sual düşündürürdü: Baş nazirin müşaviri kimi daha çox formal vəzifəyə təyin olunması ona öz biznesini qorumağa imkan verəcəkmi? Axı ölkə təcrübəsində tutduğu yüksək postu itirən, bir növ, "gözdən düşən" məmurların şəxsi bizneslərini itirməyə başlamasının çoxsaylı örnəkləri var.

İndi isə "Səba Broyler" ətrafında baş verənlər oxşar prosesin Rüstəmovla bağlı yaşanacağına dair ehtimalları qüvvətləndirir. Unutmayaq ki, hələ bu ilin iyulunda "Səba Broyler"in ciddi maliyyə problemləri yarandığına dair iddialar ortaya atılmışdı. Buna səbəb kimi isə adı çəkilən şirkətin səhmdarlarının 29 iyul tarixinə təyin edilmiş növbədənkənar ümumi yığıncağı göstərilirdi. Məsələ ondadır ki, həmin iclasın gündəliyinə bu ASC-nin aktivlərinin bir hissəsinin satılması məsələsi salınmışdı. Həmin sıraya şirkətə aid torpaq sahələri, digər şirkətlərdəki payları və səhmləri daxil idi. Söhbət sözügedən ASC tərəfindən emissiya edilmiş səhmlərin bir qisminin geri alınmasından, törəmə cəmiyyət "Chicken Pro." və "Biləsuvar Aqro" MMC-lərin nizamnamə kapitalında "Səba" ASC-yə məxsus payların, həmçinin bu ASC-nin tək təsisçiliyi ilə yaradılmış törəmə cəmiyyət "Qarabağ Taxıl" MMC-nin iştirakçılarından biri olduğu "Qarabağ Toxum" MMC-nin nizamnamə kapitalındakı paylarının, "Səba" ASC-nin mülkiyyətində olan Hacıqabul rayonu, Atbulaq kəndindəki torpaq sahələrinin "Azerbrood" MMC-yə satılmasından gedirdi.



Bütün bunları nəzərə alaraq KİV "Səba"nın çətin maliyyə durumuna düşdüyünə dair təsəvvür yarandığını bildirir və haqlı olaraq sual edirdi: əks halda, Elman Rüstəmova məxsus şirkətin öz əhəmiyyətli aktivlərini satmasının səbəbini nə ilə izah etmək olar?

O da maraqlıdır ki, həmin vaxt "Səba" bu sualı reaksiyasız buraxmış, KİV-dəki iddialara səssiz qalmışdı.

İndi isə sözügedən ASC ətrafında baş verənlər bütün diqqətləri ilk növbədə sabiq baş bankirə yönəldir. Belə fikirləşmək olar ki, Elman müəllimin baş bankirlik postunu itirdikdən sonra öz biznesini də böyük ölçüdə itirə biləcəyinə dair ehtimallar doğrulmağa başlayıb. Daha dəqiq desək, Mərkəzi Bankın sabiq rəhbərinə məxsus əksər şirkətlərin əl dəyişdirəcəyinə dair iddialar intensivləşib. Bu iddiaların nə qədər doğru olub-olmadığını əlbəttə ki, zaman göstərəcək, amma hər bir halda od olmayan yerdən tüstü çıxmaz.

Yeri gəlmişkən, "Səba" ASC 2023-cü ili 2 milyon 345 min manat xalis zərər ilə başa vurmuşdu. Halbuki şirkət əvvəlki ili 14 milyon 378 min manat xalis mənfəət ilə bağlamışdı. Bu qədər ciddi məbləğdə zərərin Rüstəmov 2022-ci ildə öz postunu tərk etmək məcburiyyətində qaldıqdan cəmi 1 il sonra baş verməsi də kifayət qədər düşündürücüdür...

*Sənan Mirzə*

# "Formula 1"ə görə bəzi küçələrdə nəqliyyatın hərəkəti məhdudlaşacaq



***Bakıda keçiriləcək "Formula 1" üzrə Azərbaycan Qran-prisi ilə əlaqədar logistik əməliyyatların həyata keçirilməsi məqsədilə sentyabrın 7-də, gecə saat 01:00-dan etibarən Puşkin küçəsinin Üzeyir Hacıbəyov küçəsi və Neftçilər prospekti ilə kəsişməsindən olan hissəsi nəqliyyatın hərəkəti üçün məhdudlaşacaq.***

Bu barədə "Unikal"a Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən məlumat verilib. Məhdudiyyət tədbirin sonunadək davam edəcək. Nəqliyyatın İdarəetmə Planına əsasən, Bakı Şəhər Halqasının keçdiyi küçələr və trekin əhatə etdiyi ərazilər sentyabrın 9-da, gecə saat 01:00-dən etibarən nəqliyyatın hərəkəti üçün bağlı olacaq. Hərəkət 17 sentyabr, səhər saat 8:00-dan etibarən bərpa olunacaq.

Nəqliyyatın hərəkət məhdudiyyəti 3 zonada tətbiq ediləcək. Birinci zona yarış halqasının əhatə etdiyi İçərişəhər ərazisi, ikinci Azadlıq meydanı və onun yaxınlığında yerləşən digər küçələr, üçüncü zona isə BMT-nin 50 illiyi küçəsinini keçdiyi ərazidir. Yarışın keçirildiyi müddətdə qeyd olunan ərazilərə nəqliyyatın giriş-çıxışı üçün "Yaşayış Yerinə Giriş İcazəsi" veriləcək. Qeyd olunan sənədi paylanma məntəqələrinə yaxınlaşaraq, həftənin bazar ertəsindən, cümə gününə kimi, saat 10:00-dan 17:00-dək əldə etmək mümkündür. Bunun üçün vətəndaşlar zonalar üzrə aşağıdakı müvafiq idarələrə müraciət etməlidirlər:

**Zona 1 - İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi**

Böyük Qala küçəsi 41, keçmiş ensiklopediya binası, 4-cü mərtəbə

Tel: (012) 497-35-89

**Zona 2 - Mənzil-Kommunal və İstismar İdarəsi № 4**

Xəqani küçəsi 26/32

Tel: (012) 498 88 06

**Zona 3 - Mənzil-Kommunal və İstismar İdarəsi № 58**

İstiqlaliyyət küçəsi 5

Qeyd edək ki, "Yaşayış Yerinə Giriş İcazəsi"nin paylanması 29 avqust tarixindən başlayıb 13 sentyabradək davam edəcək.

Hər il olduğu kimi, bu il də yarış müddətində piyadaların hərəkətinə heç bir məhdudiyyət qoyulmayacaq.

Qeyd edək ki, Azərbaycan Qran-prisi sentyabrın 13-15-i aralığında baş tutacaq.

# Rezidenturaya boş qalan plan yerlərinə ixtisas seçimi başlayıb



***Rezidenturaya boş qalan plan yerlərinə ixtisas seçimi başlayıb. Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.***

Boş qalan plan yerlərinə qəbul üçün ixtisas seçimi qəbul qaydalarının 4.1-ci və 4.2-ci bəndləri (bax: "Rezidentura" jurnalı №1, 2024, səh.3) nəzərə alınmaqla onlayn qaydada sentyabrın 2-dək həyata keçiriləcək və həmin yerlərə müsabiqə yolu ilə yerləşdirmə aparılır.Müsabiqədə iştirak etmək istəyən namizədlər //eservices.dim.gov.az/erizerez/ixtisas2/ ünvanına daxil olub ixtisas seçimi edə bilərlər.

Qeyd edək ki, 2024/2025-ci tədris ili üçün rezidenturaya qəbul planı ümumilikdə 685 yerdən ibarət olub. Onlardan 60 yer ATU-nun Hərbi tibb fakültəsinin məzunları üçün və 40 yer İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının məzunları üçün nəzərdə tutulub.

Artıq əsas yerləşdirmədən sonra qəbul olanların qeydiyyatı başa çatıb. Rezidenturaya qəbul olmuş namizədlərdən 17 nəfər müəyyən olunmuş müddətdə qeydiyyatdan keçmədiyi üçün bu onların yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilib (bu namizədlər boş qalan yerlər üzrə keçirilən müsabiqəyə buraxılmırlar).

30_27 IYUI-QARA.qxd 8/29/2024 10:03 PM Page 11





## "Yaxın gələcəkdə Zəngəzur dəhlizinin istifadəyə verilməsi istisna deyil" - İqtisadçı

***"Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin son görüşündə Qars-İğdır-Naxçıvan dəmiryolu xəttinin çəkilməsinin yaxın zamanda başa çatacağı bəyan edilib".***

"Unikal" xəbər verir ki, bunu VI çağırış Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov deyib. O bildirib ki, Qars-İğdır-Naxçıvan dəmiryolunun inşası regionda nəqliyyat şəbəkəsinin genişləndirilməsi baxımından vacibdir:

"Bu dəmiryolu xətti Naxçıvan vasitəsilə Türkiyə və Avropaya çıxış imkanlarını artıracaq. Sözügedən dəmiryolu xətti Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacaq. Bu isə Naxçıvan daxil olmaqla, Azərbaycan üzərindən daşınan yüklərin həcmini artıracaq. Nəticədə beynəlxalq yükdaşımalardan əldə olunan gəlirin həcmi əhəmiyyətli dərəcədə çoxalacaq. Yeni xətt həmçinin, Azərbaycanın beynəlxalq geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə imkan yaradacaq. Qars-İğdır-Naxçıvan dəmiryolunun inşası Naxçıvandakı iş adamları üçün geniş imkanlar açır ki, istehsal olunan məhsullar daha geniş bazarlara çıxarılacaq.

Təbii ki, qarşıda duran əsas məsələlərdən biri Zəngəzur dəhlizinin açılması, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru nəqliyyatın bərpasıdır. Azərbaycan Zəngəzur dəhlizinin öz ərazisində olan hissəsinin tikinti-quraşdırma işlərinin artıq 80 faizdən çoxunu yekunlaşdırıb. Təəssüf ki, Ermənistan tərəfindən hələlik ciddi addımlar atılmayıb.Qafqazdakı son düzən və eləcə də nəqliyyatın inkişafı ilə bağlı Azərbaycanla Türkiyə arasındakı anlaşmalar ondan xəbər verir ki, yaxın gələcəkdə Zəngəzur dəhlizinin istifadəyə verilməsi istisna deyil".

## Naxçıvanın 1 qəsəbəsi və 5 kəndində su təchizatı sistemləri yaradılacaq

***Naxçıvan Muxtar Respublikasının bir sıra yaşayış məntəqələrində içməli su və kanalizasiya sistemlərinin yaradılması layihəsinin icrasına hazırlıq görülür.***

Bununla bağlı Muxtar Respublikanın Dövlət Su Ehtiyatları Agentliyi satınalma işlərinə başlayıb. Layihələrə əsasən Kəngərli rayonun Qıvraq qəsəbəsi və Şahtaxtı kəndində içməli su təchizatı və kanalizasiya sistemləri inşa ediləcək.

Qarabağlar, Xok, Yurdcu və Qabıllı kəndlərində isə əvvəllər icra olunmuş və yarımçıq qalmış su təchizatı sistemlərinin yaradılması işləri davam etdiriləcək.

Bununla bağlı su təchizatı və kanalizasiya sistemlərinin tikintisinin texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanacaq.

Layihələrin icrasına tələb olunan vəsait 649 min manat qiymətləndirilib.

# Bəzi iri məmurların milyonlarla manatlıq müəmmalı əməliyyatı

## Onlar niyə ofis binası tikmək əvəzinə 4-5 milyon manat icarə haqqı ödəməyi üstün tuturlar? - İlginc təfərrüatlar!



***Son vaxtlar bəzi dövlət qurumlarının müəyyən müddətə ofislər icarəyə götürməsinə dair elan etdikləri tenderlərlə bağlı xəbərlərə mütəmadi rast gəlinir. Həmin xəbərlərdən aydın olur ki, bəzi nazirliklər belə icarələr üçün külli miqdarda pul ödəməkdən çəkinmirlər. Söhbət bəzi hallarda hətta illik 4-5 milyon manatlıq icarə müqavilələrindən gedir.***

Bir neçə ay öncə sözügedən mövzuya toxunmuşuq və müəyyən araşdırmalardan sonra sözügedən icarə müqavilələrinin qaranlıq tərəflərinə daha dəqiqliklə işıq tutacağımızı bildirmişdik. Elə bu yazıda siz də bəzi iri məmurların "ofis icarəsi sevgisinin" pərdəarxasını öyrənəcəksiniz.

Lakin öncə gəlin müəyyən faktlara bir daha nəzər salaq.

Bir müddət öncə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi "Qeyri-yaşayış sahəsinin icarəsi" tenderinin nəticələrini elan etmişdi. Bildirilirdi ki, tenderin qalibi Emil Vidadi Oğlu Orucov adlı fiziki şəxsdir. Məlumata görə, müqaviləyə əsasən dövlət qurumu bu şəxsin cəmi 2.000 kvadrat metrlik qeyri-yaşayış sahəsini 320 min manata icarəyə götürüb. Müqavilə həmin sahənin 12 aylıq icarəsini nəzərdə tutur. Söhbətin konkret olaraq, hansı ünvandan getdiyi göstərilmir. Ancaq məlum olan odur ki, sözügedən qurumun şöbələrinin heç biri şəhərin mərkəzində yerləşmir. Bu baxımdan 2.000 kvadrata 320 min icarə haqqı ödənilməsi kifayət qədər baha olmaqla "təəccüblü" görünür...

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondunun (DSMF) elan etdiyi və adıçəkilən fondun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının inzibati binasının əsaslı təmir işlərini nəzərdə tutan tenderinin nəticələri də müəmmalarla doludur. Həmin tenderin qalibi "Conco" QSC (VÖEN - 1403054601) olub.

Açıqlanan məlumatlarda bildirilirdi ki, 11.05.2023-cü il tarixindən 31.05.2025-ci il tarixinə kimi həyata keçiriləcək təmir işləri üçün DSMF "Conco" QSC-yə 7 milyon 167 min 998 manat 7 qəpik ödəyəcək. Ancaq maraqlı burasıdır ki, hələ bu tenderdən 6 ay öncə DSMF Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı üçün ofis sahəsi icarəyə götürüb. Aydın Akif oğlu Abasov adlı şəxsdən bir il müddətinə icarəyə götürülən 3 000 kv-metr ofis üçün DSMF 513 min 720 manat ödəyib! Qəribə deyilmi? Suallara yol açmırmı? Təmir üçün tender keçirmədən ofis icarəyə götürmək hansı məntiqə sığır? Özü də yarım milyon manatlıq icarə haqqı ilə?!

İki il öncə isə sabiq deputat Cavanşir Feyziyevin Buzovnada olan obyektini Dövlət Agentliyinə bir ili 1 milyon 176 min manata kirayə verdiyi üzə çıxmışdı. Bu barədə həmin vaxt iqtisadçı Natiq Cəfərli paylaşım etmişdi: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 5 ildi fəaliyyətə başlayıb, pilot layihələr edib - bununla bağlı normal məlumatlar yaymayıb, fəaliyyəti ilə bağlı ciddi suallar var, əlçatan xidmət məsələsi axsayır, hələ bir nəfər tanımıram ki, Agentlikdən razılıq etsin.

İndi də məlum olur ki, Agentlik Buzovna qəsəbəsində 1 illiyə ofis və anbar icarəyə götürüb - müqavilənin dəyəri 1 mln. 176 min manatdır. Agentlik obyekti ayı 98 min manata icarəyə götürüb, özü də Buzovnada.

Məsələnin maraqlı tərəfi odur ki, həmin obyektin sahibi gənc bir insandır - Orxan Feyziyev. Ola bilər çox bacarıqlı, təhsilli gəncdir, amma bir məsələ var ki, Orxan bəy deputat Cavanşir Feyziyevin oğludur".

Bu faktın özü də dövlət qurumlarının icarə götürdükləri obyektlərlə, binalarla bağlı yetərincə şübhəli, qaranlıq məqamların olduğunu təsdiqləyirdi.

Lakin maraq doğuran başlıca sual budur: dövlət qurumları göstərilən məbləğlərlə ofis binas tiksələr ya eyni, ya da daha az xərc çıxar. Bəs elə isə onlar niyə bina tikməyə deyil, icarəyə götürməyə maraqlıdırlar? Bu mövzu ilə bağlı yola salmaq üzrə olduğumuz həftə yerli KİV-ə açıqlama verən iqtisadçı ekspert Natiq Cəfərli deyib ki, dövlətin yaratdığı publik hüquqi şəxslərin binaları icarəyə götürməsi təcrübəsi uzun müddətdir var və qurumların ofis icarəyə götürməsi qanunla qadağan deyil: "Ona görə də, bir çox dövlət orqanları və dövlət tərəfindən təsis olunan publik hüquqi şəxslər büdcədən ayrılan vəsait hesabına və ya özlərinin qanun çərçivəsində qazandığı vəsait hesabına icarə tutmaqda daha maraqlı olurlar. Məntiqlə yanaşsaq, yeni binaların tikilməsi daha yaxşı və doğru qərar ola bilər. Biz onu da müşahidə edirik ki, bəzi hallarda icarədə olan dövlət orqanlarının bəziləri zaman keçdikcə bina tikirlər" (valyuta.az).

Ekspert bildirib ki, qurumların binaları icarəyə götürməsində şəxsi maraqlar mühüm rol oynayır: "İcarə müqavilələri bağlanan zaman bəzi hallarda kimlərinsə tanışı, qohumu, yaxın adamı, dostu olan şəxslərlə müqavilə bağlanır. Bu da, həmin şəxslərin maraqları çərçivəsində olur. Təəssüf ki, Azərbaycanda belə hadisələr olur. Amma bu praktikadan yavaş-yavaş uzaqlaşmağa başlayırlar. Artıq görürük ki, hər il icarədə olan dövlət qurumları artıq dövlət büdcəsindən ayrılan vəsait hesabına özlərinə binaların tikintisi ilə bağlı qərarlar da alır. Bu praktika getdikcə daha geniş yayılır. Amma hələ də bu məsələnin qalmasında bəzi hallarda şəxsi maraqların rolu böyükdür".

Mövzu ilə bağlı söhbətləşdiyimiz adının çəkilməsini istəməyən ekspert isə bildirib ki, Azərbaycanda bir sıra yüksək vəzifəli şəxslər Bakının müxtəlif yerlərində ofis binaları inşa etdiriblər. Həmin binalar bu məmurların ailə üzvlərinin, yaxud onlara yaxın şəxslərin adına rəsmiləşdirilib. "Haqqında danışılan vəzifə sahibləri öz əlaqələrini, təsir imkanlarını işə salaraq bu ofis binalarını kifayət qədər ciddi məbləğlər müqabilində hansısa dövlət qurumlarına icarəyə verməyi bacarırlar. Bununla bağlı tenderlər isə formal xarakter daşıyır və daha çox gözdən pərdə asmağa hesablanıb".

Qeyd edək ki, paytaxtdakı bir sıra biznes mərkəzlərinin də birbaşa və ya dolayı yolla müəyyən məmurlara məxsusluğu kimsəyə sirr deyil. Həmin biznes mərkəzlərində icarə haqları da kifayət qədər yüksəkdir və öz sahibləri üçün ciddi gəlir mənbəyidirlər. Lakin icarə haqlarının yüksək olmasına baxmayaraq bu cür biznes mərkəzlərində, plazalarda bəzən boş yer tapmaq mümkün deyil. Bunun da səbəbi var - onların sahibi, yaxud himayəçisi olan vəzifəli şəxslər əllərindəki resurslardan faydalanaraq dövlət və qeyri-dövlət qurumlarını, şirkətlərini oraya yönləndirirlər...

***Toğrul Əliyev***

## 5.3.8. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan xalqı öz milli adət-ənənələrini gələcək nəslin yaddaşına əbədi həkk edir!

### İqtisadçı alim: "İllərdir ki, keçirilən "Muğam müsabiqəsi" milli dəyərlərimizin təbliği və yaşadılması baxımından çox əhəmiyyətlidir"

***Azərbaycan xalqı dünyanın ən qədim dövlətçilik tarixinə malik olan xalqlarındandır. Tarixi abidələrimiz, daş salnamələrimiz xalqımızın qədim tarixə malik olduğunu təsdiqləyən danılmaz sübutlardandır. Gələcək nəslin mənsub olduğu xalqın, dövlətin dövlətçilik tarixini bilməsi olduqca strateji bir məsələdir. Odur ki, bu gün qarşıda duran əsas məqsəd dövlətçilik tarixinin və ənənələrinin yeni nəsillərə ötürülməsidir. Bunun üçün tədris materialları dövlətçilik tarixini tam əhatə etməlidir.***



Milli Məclisin sabiq deputatı Tahir Rzayev "Unikal" qəzetinə müsahibəsində bildirib ki, gənclərin dövlətçilik tarixini, milli adət-ənənələrin, elm və mədəniyyətin təbliğini öyrənməsi ilə bağlı əlimizdən nə gəlirsə etməliyik.

Müsahibimiz bildirib ki, Azərbaycan xalqının özünəməxsus milli-adət ənənələri, mənəvi dəyərləri var. Xalqımız bu milli-mənəvi dəyərlərə söykənməklə öz tarixini, adət-ənənələrini yaşatmalıdır. T.Rzayev illərdir ki, keçirilən "Muğam müsabiqəsi"ni milli dəyərlərimizin təbliği və yaşadılması baxımından çox əhəmiyyətli olduğunu söyləyir. Bildirir ki, Azərbaycan musiqisinin, muğamının yaşadılması böyük əhəmiyyət kəsb edən bir layihədir.

T.Rzayevin sözlərinə görə, Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği sahəsində xüsusən Vətən Müharibəsindən sonrakı dövrdə çox sayda tədbirlər həyata keçirilib. Bu tədbirlər Azərbaycanın dünyada tanıdılmasına xidmət edir. O, buna misal kimi, Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalını göstərib. Onu da vurğulayıb ki, Qarabağ mətbəxinin təbliği baxımından Şuşada keçirilən Beynəlxalq Kulinariya Festivalı da mühüm əhəmiyyət kəsb edir. Burada Azərbaycan mətbəxinin milli yeməkləri təbliğ edilir. Bütün bunlar xalqımızın milli adət-ənənələrinin tanıdılması, mənəvi inkişafımız baxımından çox vacibdir. Min illər boyu formalaşan təkraredilməz adət və ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynayır.

Həmsöhbətimiz deyir ki, xalqımız əsrlər boyu milli-mənəvi dəyərlərinə, adət-ənənəsinə, mədəniyyətinə, musiqisinə, tarixinə bağlılığı sayəsində özünəməxsusluğunu qorumağa nail olub. Özünün zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verib.

Qeyd edək ki, Azərbaycan xalqı digər xalqlardan həmişə özünəməxsus musiqi mədəniyyəti ilə fərqlənib. Xalqımıza məxsus mədəni nümunələrdən biri də aşıq sənəti hesab olunur. Aşıq sənəti muğam sənəti ilə yanaşı, Azərbaycan musiqi mədəniyyətinin vacib əsaslarından sayılır. Aşıq sənəti əlvan xüsusiyyətlərə, müxtəlif mövzulara və süjet xəttinə malikdir. Bu sənət yalnız poetik düşüncə nümunəsi deyil, xalqın müdrikliyinin, çoxəsrlik təcrübəsinin, mədəniyyətinin təzahürüdür. O, şifahi nitqin zənginliyi və müxtəlifliyi ilə fərqlənir, onda xalqın dilinin sadəliyi, poetikliyi və gözəlliyi, əvəzolunmaz emosionallığı əks olunur. Aşıq yaradıcılığı xalqımızın mədəniyyətini dərin türk köklərinə bağlayır. Araşdırmalar göstərir ki, aşıq sənətinin türk dünyasında ən çox inkişaf etdiyi məkan elə Azərbaycandır. Aşıq sənəti yaranıb formalaşdığı dövrün xüsusiyyətlərini özündə daşıyıb, dövrün tarixi ilə sıx bağlı olub. Aşıq sənətində bizim istedadlı ifaçılarımız olub. Bir-birindən zəngin olan, özünəməxsusluğu ilə fərqlənən aşıq məktəblərimiz var. Borçalı, Qazax-Tovuz-Şəmkir, Gədəbəy, Şirvan, Göyçə, Cənubi Azərbaycan aşıq məktəbləri daim öz adları ilə seçilib.

Azərbaycan aşıqlarının ən qədim epik yaradıcılıq nümunəsi müasir Azərbaycan aşıqlarının ulu babaları olan qədim ozanların həyatına, sevgi və qəhrəmanlıqlarına həsr olunmuş VII əsrə aid edilən "Kitabi Dədə Qorqud" dastanıdır. Aşıq sənəti həmçinin bəstəkarların yaradıcılığına da təsir göstərmişdir. İlk dəfə aşıq musiqisinin xüsusiyyətləri dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov tərəfindən "Koroğlu" operasında istifadə olunmuşdur. Müasir musiqinin texniki vasitələri ilə aşıq musiqisinin xüsusiyyətlərini birləşdirən bəstəkar Qara Qarayev isə Üçüncü simfoniyasının ikinci hissəsində onların vəhdətini yarada bilibdir.

Dövlət tərəfindən bu gün aşıq sənətinə böyük qayğı var. 2009-cu ildə Azərbaycanın aşıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Azərbaycan hökumətinin həyata keçirdiyi məqsədyönlü siyasət və bu istiqamətdə müvafiq tədbirlər nəticəsində bu ulu sənət bəşəri status qazanıb. Son 10 ili aşıq sənətinin inkişafında yeni bir mərhələ hesab etmək olar. Məhz bu illərdə sənətə və aşıqlarımıza dövlətin qayğısı daha da artıb, ustad aşıqlar fəxri adlara və Prezident təqaüdünə layiq görülüblər. Bu dövrdə Azərbaycanda iki dəfə beynəlxalq aşıq festivalı, ustad aşıqların yubileyləri keçirilib, aşıq sənətinin elmi-nəzəri tədqiqinə və ustadların həyat və yaradıcılığına həsr olunmuş kitablar nəşr olunub, aşıqlarımız dünyanın bir çox ölkələrinin möhtəşəm salonlarında çıxış ediblər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# 400-ə yaxın vətəndaşa yarım milyon manat ziyan vuruldu - Kiberşəbəkə ifşa edildi

***Daxili İşlər Nazirliyinə son dövrlər ödəniş sistemləri, online alış-veriş saytları və digər internet resurslarında yeni texnoloji vasitələrdən istifadə olunmaqla müştərilərin kart məlumatlarının ələ keçirilərək pul vəsaitlərinin oğurlandığı barədə vətəndaşlar tərəfindən çoxsaylı müraciətlər edilir.***

"Unikal" xəbər verir ki, bu barədə DİN-dən bildirilib. Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən internet resurslarında aparılan araşdırmalar nəticəsində həyata keçirilən əməliyyat-texniki tədbirlərlə sosial şəbəkələrdə qanunsuz şəkildə fəaliyyət göstərərək fişinq yolu ilə vətəndaşların kart məlumatlarını əldə edərək xüsusilə külli miqdarda pul vəsaitlərini oğurlayan daha bir dəstənin üzvləri Ərtoğrul Akdemir, Şamxal Abbasov, Qnyaz Həsənov və Sabir Hümmətzadə saxlanılıblar.

Müəyyən olunub ki, dəstə üzvləri cinayət əlaqəsinə girərək banklar və alış-veriş platformalarına oxşar saxta saytlar hazırlayaraq guya banklar tərəfindən pul uduşlu lotereyalar keçirildiyi, bahalı telefon modellərinin dəyərindən aşağı qiymətə satışa çıxarıldığı barədə həqiqətəuyğun olmayan elanlar yerləşdiriblər. Dəstə üzvləri bu elanların geniş yayımı və daha çox vətəndaşın cəlb olunması üçün sosial şəbəkələrdə həmin linklərin ödənişli reklamlarını da təşkil ediblər. Vətəndaşlar saxta linklərə daxil olaraq özlərinə məxsus bank kartlarının məxfi və OTP təhlükəsizlik kodlarını təqdim edəndən sonra qrup üzvləri həmin şəxslərin mobil bank tətbiqlərinə daxil olaraq hesablardakı pulları oğurlayıblar. Saxlanılanlar şəxsiyyətlərinin müəyyən edilməməsi məqsədilə oğurlanmış vəsaitləri müxtəlif şəxslərdən ödəniş müqabilində ələ keçirdikləri kartlara köçürərək sonradan kriptovalyuta hesablarına göndəriblər. Nəzərə almaq lazımdır ki, kartını kibercinayətkarlara maddi maraq qarşılığında istifadəyə verən şəxs də həmin cinayətkar dəstələrin üzvü hesab edilir və qanun qarşısında məsuliyyət daşıyır. Baş İdarədə aparılan araşdırmalar, eləcə də dəstə üzvlərinin gizli şəkildə fəaliyyət göstərdikləri internet resurslarına baxış zamanı aşkar olunan maddi və elektron sübutlar əsasında onların 400-ə yaxın vətəndaşın kartından pul vəsaitləri oğurlayaraq onlara ümumilikdə 500.000 manata yaxın maddi ziyan vurduqları müəyyən edilib. Sonuncu əməliyyat zamanı saxlanılan Ərtoğrul Akdemir və Şamxal Abbasovun başçılıq etdiyi kiberdəstənin törətdiyi qanunsuz əməllərlə bağlı Baş İdarədə məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, əməliyyat-texniki tədbirlər davam etdirilir.

30_27 IYUl-QARA.qxd 8/29/2024 10:03 PM Page 13



## Qusarda ilin birinci yarımilliyində informasiya və rabitənin inkişafı belə olub

***Qusar Rayonunda 2024-cü ilin yanvar-iyun aylarında informasiya və rabitə sahələrində 1354,2 min manat dəyərində məhsul istehsal edilmiş, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 25,8 faiz çoxdur.***

İnformasiya və rabitə xidmətlərinin 1060,2 min manatı və yaxud 78,3 faizi bilavasitə əhaliyə göstərilmişdir ki, bu xidmətlərin həcmi keçən ilin müvafiq dövründəkindən 16,3 faiz çox olmuşdur.

Cari ilin 6 ayında bu sahədə 75 nəfər işçi çalışmış və onların əməkhaqqı fondu 396482,0 manat olmuşdur. Bir işçinin orta aylıq əməkhaqqı 819,0 manat olmuşdur.

*Qusar rayon Statistika İdarəsinin baş məsləhətçisi Habil Quliyev*

## Böyrəkləri qorumağın 9 yolu

***Böyrəklər müxtəlif gündəlik vərdişlərdən zərər görməyə meyilli kompleks orqanlar hesab olunur. Mütəxəssislər böyrəkləri qorumağın əsas yollarını açıqlayıblar.***

"Unikal" böyrəkləri qorumağın 9 yolunu təqdim edir:

**1. Ağrı kəsicilərin həddindən artıq istifadəsindən çəkinin**

Əksər ağrı kəsici dərmanlar ağrıları aradan qaldıra bilir, lakin onlar böyrəklərə zərər verir. Xüsusən də böyrək xəstəliklərindən əziyyət çəkən insanlar ağrı kəsici dərmanlardan istifadəni məhdudlaşdırmalıdırlar.

**2. Duzdan istifadəni məhdudlaşdırın**

Duzlu qidalar böyrəklərə ziyan verir, qan təzyiqini artırır. Yeməkləri duz əvəzinə göyərti və ədviyyatlarla dadlandıra bilərsiniz. Zaman keçdikcə yeməyinizdə əlavə duz istifadə etmək istəməyəcəyinizi hiss edəcəksiniz.

**3. Fast-foodlardan uzaq durun**

Hazır qidalar natrium və fosforun mühüm mənbələridir. Böyrək xəstəliyi olan bir çox insan pəhrizində fosforu məhdudlaşdırmalıdır. Bəzi tədqiqatlar göstərmişdir ki, hətta böyrək xəstəliyi olmayan insanların da işlənmiş qidalardan yüksək fosfor qəbulu onların böyrəklərinə və sümüklərinə zərər verə bilər.

**4. Bol su içmək**

Bol su istehlakı böyrəklərin natrium və toksinləri bədəndən təmizləməsinə kömək edir. Bol su içmək böyrək daşlarından qorunmağın da ən yaxşı yollarından biridir.

**5. Keyfiyyətli yuxu**

Yaxşı bir gecə yuxusu ümumi sağlamlıq və böyrəklər üçün son dərəcə vacibdir. Böyrək funksiyası gecəgündüz böyrəklərin iş yükünü koordinasiya etməyə kömək edən yuxu-oyanma dövrü ilə tənzimlənir.

**6. Balanslı qidalanın**

Heyvan zülalları qanda yüksək miqdarda turşu əmələ gətirir ki, bu da böyrəklər üçün zərərlidir. Və asidoza səbəb olur, bu da böyrəklərin turşunu kifayət qədər tez xaric etməməsi vəziyyətinə səbəb olur. Zülal bədənin bütün hissələrinin inkişafı, saxlanması və bərpası üçün vacibdir.

**7. Çox şəkərdən uzaq durun**

Şəkər piylənməyə təsir edərək, böyrək xəstəliklərinin iki əsas səbəbi olan yüksək qan təzyiqi və diabet riskini artırır. Bundan əlavə, şəkər tez-tez "şirin" olmadığını düşündüyümüz qidalar və içkilərdə də mövcud olur. Məsələn, şəkərin gizli mənbələri də vardır. olan ədviyyatlar, səhər yeməyi taxılları və ağ çörəkdən çəkinməyə də diqqət yetirin.

**8. Siqareti tərgidin**

Siqaretin ümumi sağlamlığa olan zərərləri saysız-hesabsızdır. Lakin siqaret bir qayda olaraq böyrəklərə, böyrək xərçəngi riskinə və qan damarlarının zədələnməsinə səbəb olur. Bundan əlavə, siqaret yüksək təzyiqi müalicə edən bəzi dərmanlarla qarşılıqlı təsir göstərə bilər. Bu ciddi problemlərin, əsasən də böyrək xəstəliklərinin əsas səbəbidir.

**9. Daha çox hərəkət edin**

Uzun müddət oturmaq böyrəklərə mənfi təsir göstərir. Daha çox fiziki fəaliyyət böyrək sağlamlığında mühüm amillər olan qan təzyiqi və qlükoza mübadiləsinin yaxşılaşması ilə bağlıdır. Buna görə də, adekvat və müntəzəm məşqləri gündəlik işinizdən qaçırmayın.

*Zərifə Nağıyeva*

## "Dövlət sifarişli tələbələrin təhsil haqqı diferensiallaşdırılsın" - Rektordan təklif

***UNEC rektoru professor Ədalət Muradov dövlət sifarişi ilə təhsil alan tələbələrin təhsil haqları ilə bağlı rəsmi Facebook səhifəsində maraqlı təkliflərlə çıxış edib.***



"Unikal" xəbər verir ki, ali təhsildə adambaşına maliyyələşdirmə prinsipinin tətbiqinin çox böyük müsbət yenilik olduğunu qeyd edən rektor, bu yanaşmanın tətbiqi mexanizminin təkmilləşdirilməsini təklif edib: "Bu gün tətbiq edilən yanaşma universitetlər arasında sanki aşağı ballı tələbələr uğrunda mübarizəni gücləndirir. Belə ki, yüksək ballı tələbələrin və müvafiq olaraq, dövlət sifarişli tələbələrin sayının artması universitet büdcəsini artırmaq əvəzinə azaldır. Çünki dövlət sifarişli tələbəyə ödənilən təhsil haqqı daha azdır. Amma bu belə yox, əksinə olmalıdır. UNEC bu gün belə bir vəziyyətlə üz-üzədir. Belə ki, son illər ərzində UNEC-ə qəbul olan dövlət sifarişli tələbələrin payı 30%-dən demək olar ki, 80%-ə qədər artmışdır və nəticədə universitet büdcəsi azalmışdır. Başqa sözlə, keyfiyyətin artmasına görə universitet sanki cəzalandırılır. Bu yanaşmaya aşağıdakı dəyişikliyi təklif edirik:

1. Dövlət sifarişli təhsilə görə bu gün tətbiq edilən təhsil haqqının diferensiallaşdırılması. Başqa sözlə, müəyyən aralıqda bal toplamış dövlət sifarişli tələbələrə fərqli təhsil haqqı müəyyən edilsin. Daha yüksək bal toplayanlara (məsələn, 650-700 bal) daha çox, daha az bal toplayanlara (məsələn, 350-400 bal) daha az ödəniş edilsin. Və yaxud

2. Dövlət sifarişli tələbələrin təhsil haqqının artırılması. Və ya

3. Yuxarıda göstərilmiş hər iki variant, yəni dövlət sifarişli tələbələrin təhsil haqqını diferensiallaşdırmaqla artırmaq.

Rektor UNEC-ə bu il qəbul olmuş bütün tələbələrin 78%-nin (2918 tələbə) dövlət sifarişli, 22%-nin (830 tələbə) isə ödənişli əsaslarla olduğunu da qeyd edib.

## MİQ-dən narazı qalanlardan şikayət qəbulu başa çatıb

***Dövlət ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu (MİQ) üzrə müsabiqənin müsahibə mərhələsinin nəticələrindən narazı qalanların apellyasiya şikayətlərinin qəbulu müddəti başa çatıb.***

Bu barədə Modern.az-a Təhsil İnstitutu nəzdində İnsan Resursları Mərkəzindən məlumat verilib. Bildirilib ki, MİQ-in müsahibə mərhələsində uğur qazanmayan namizədlər 27 avqust saat 18:00-dan etibarən şəxsi səhifələrinə daxil olaraq apellyasiyaya müraciət edə bilərdilər. Apellyasiya müraciətlərinin qəbulu 28 avqust saat 18:00-da başa çatıb.

Yaxın vaxtlarda onlayn apellyasiya müsahibələrinin keçiriləcəyi tarix açıqlanacaq.

Qeyd edilib ki, apellyasiya müsahibələrinin onlayn formatda təşkili nəzərdə tutulub. Bunun üçün namizədlər şəxsi səhifələrinə daxil olaraq müsahibə linkinin göndəriləcəyi elektron poçt ünvanlarını müvafiq xanaya yazaraq iştirakların təsdiq etməlidirlər. Qeydiyyat zamanı elektron poçt ünvanını düzgün qeyd etməyən və elektron ərizəsini təsdiqləməyən namizədlərin apellyasiya müraciəti təmin olunmayacaq.



Xatırladaq ki, MİQ-in 14-22 avqust tarixlərində təşkil olunan müsahibə mərhələsində 4658 nəfər uğur qazanıb.

Müsahibələrdə uğur qazanan namizədlər 2 sentyabr saat 18:00-dək zəruri sənədləri (şəxsiyyəti təsdiq edən sənədin, ali və ya orta ixtisas təhsili haqqında sənəd və ona əlavənin surəti, əmək kitabçasının əsli (olduğu təqdirdə), 4 ədəd 3x4 formatında fotoşəkil, sağlamlıq haqqında arayış, kadrlar uçotunun şəxsi vərəqəsi, şəxsi səhifədə işə qəbulun nəticəsinə dair çıxarış) aidiyyəti yerli təhsil idarəetmə orqanına təqdim etməlidirlər.

Çıxarışı aidiyyəti yerli təhsil idarəetmə orqanı tərəfindən təsdiq olunmuş namizədlərin işə qəbulu rəsmiləşəcək. Namizədlərə sənədlərini təqdim etdikdən sonra şəxsi səhifələrinə daxil olaraq çıxarışın təsdiq olunduğunu yoxlamaq tövsiyə olunur.

Çıxarışını təsdiq etməyən, müsahibə mərhələsində uğur qazandıqdan sonra tutduğu vakant yerdən imtina edən şəxslərin növbəti turlarda iştirakı təmin olunmayacaq.

## 2024-cü ilin 6 ayında Qusarda əmək bazarının vəziyyəti barədə statistika

***01.07.2024-cü il vəziyyətinə iqtisadi fəal əhalinin sayı 54,5 min nəfər, ondan məşğul əhalinin sayı 52,1 min nəfər, işsiz əhalinin sayı isə 2,4 min nəfər olub.***

Cari ilin yanvar-iyun aylarında cəmi 69 yeni iş yeri açılmışdır ki, onların hamısı daimidir. Yeni yaradılmış iş yerlərindən 8-si yeni yaradılmış hüquqi şəxslərdə, 61-i isə mövcud müəssisə və təşkilatlarda açılmışdır.

2024-cü ilin yanvar-iyun aylarında 3 hüquqi və 377 fiziki şəxs vergi orqanlarında qeydiyyatdan keçmişdir.



2023-cü ilin doqquz ayında Qusar rayonunun iqtisadiyyatında muzdla çalışan işçilərin orta siyahı sayı 12229 nəfər olmuşdur ki, bunlardan 6109 nəfəri dövlət sektoruna, 6120 nəfəri isə qeyri-dövlət sektoruna aid müəssisələrdə çalışmışlar. Həmin dövrdə faktiki işləmiş işçilərin sayı isə 11789 nəfər olmuşdur. 2024-cü ilin 6 ayında muzdla çalışan işçilərə 45627,1 min manat əməkhaqqı hesablanmış, bir nəfərə düşən orta aylıq nominal əməkhaqqı 645,1 manat təşkil etmişdir, müvafiq olaraq bu göstərici dövlət sektorunda 776,1, qeyri dövlət sektorunda isə 524,6 manat təşkil etmişdir. Qusar rayonu üzə orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,8 faiz artmışdır.

*Qusar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi Vahid Hacıbabayev*

30_27 IYUl-QARA.qxd 8/29/2024 10:03 PM Page 14



# İTS hesabına 145 transplantasiya əməliyyatı icra olunub




***Ötən ilin avqust ayından başlayaraq orqan transplantasiyası limitli şəkildə icbari tibbi sığortanın Xidmətlər Zərfi ilə təminata alınıb.***

İcbari tibbi sığorta hesabına 2023-cü ilin avqust ayından cari ilin avqust ayına kimi 145 transplantasiya əməliyyatı icra olunub. Bu əməliyyatların 71-i qaraciyər, 71-i böyrək, 3-ü isə sümük iliyi transplantasiyası üzrə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin müqavilə bağladığı tibb müəssisələrində və Səhiyyə Nazirliyinin tabeliyindəki Milli Hematologiya və Transfuziologiya Mərkəzində həyata keçirilib.

Orqan transplantasiyası - sübutlu təbabətə əsaslanan bütün digər müalicə üsulları effekt vermədikdə insan həyatının xilas edilməsi və sağlamlığının bərpası üçün cərrahiyyə əməliyyatı aparmaqla xəstəliyi olan şəxsdə olmayan və ya funksiyasını itirmiş orqanların donordan alınmış orqanlarla əvəz edilməsidir.

Qaraciyər transplantasiyası qaraciyər sirrozu, bəzi anadangəlmə və genetik xəstəliklər, qaraciyər xərçəngi zamanı tövsiyə edilir. Böyrək transplantasiyası böyrək çatışmazlığının terminal stadiyasında olan xəstələr üçün ən uyğun müalicə üsulu olaraq qəbul edilir. Sümük iliyi transplantasiyası zədələnmiş və ya tam məhv olmuş sümük iliyinin yeni sümük iliyi hüceyrələri ilə əvəz edilməsidir.

Orqan və toxumaların köçürülməsi donor və resipiyent arasında həyata keçirilən cərrahi əməliyyatdır. Donor orqanları transplantasiya məqsədi ilə götürülən canlı insan, yaxud meyitdir. Resipiyent isə müalicə məqsədi ilə orqan və ya toxumalar köçürülən şəxsdir.

Orqan transplantasiyası, yalnız tibbi göstəriş əsasında həyata keçirilir. Pasiyent ona orqan çatışmazlığı diaqnozu qoyulduğu zaman ilkin məlumat əldə etmək məqsədilə Səhiyyə Nazirliyinin tabeliyində "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi"nə (Mərkəz) müraciət etməlidir. Sənədlər təqdim edildikdən sonra Mərkəz tərəfindən vətəndaş "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən müvafiq tibb müəssisələri"ndən birinə yönləndirilir. Qeyd edək ki, pasiyent tibbi xidməti icra edən tibb müəssisəsini və həkimi seçməkdə azaddır. Müvafiq tibb müəssisəsinə müraciət edən pasiyent həmin xəstəxanadakı Həkim Komissiyasının cərrah, kardioloq, psixoloq, nefroloq (böyrək üzrə), hematoloq (qaraciyər üzrə), reanimotoloq, anestezioloq və digər ixtisaslaşmış həkimləri tərəfindən müayinədən keçirilir. Müayinənin nəticələrinə əsasən rəy və protokol Mərkəzə təqdim edildikdən sonra xəstəliyin ağırlığına uyğun olaraq əməliyyat ya təcili, ya da növbəlilik prinsipi əsasında icra edilir.

Canlı donorun həyatı üçün təhlükə yaratmamaq məqsədilə transplantasiya üçün cüt orqanlardan biri, tək orqanların isə bir hissəsi götürülür. Əməliyyatdan öncə həm donor, həm də resipiyent müvafiq müayinələrdən keçdikdən sonra əks göstəriş olmadığı təqdirdə eyni gündə əməliyyata cəlb olunurlar. Əməliyyatdan sonra donor və resipiyent stasionar şəkildə müalicə edilir. Bir müddətdən sonra isə hər iki tərəf həkim nəzarəti altında olmaqla ambulator müalicə üçün evə yazılır.

Qeyd edək ki, xəstəliyin diaqnostikası, reanimasiya və stasionarda yatış, yatış və əməliyyat zamanı istifadə olunan dərman və tibbi sərf, laborator və instrumental müayinələr, qan və ya qan komponentləri, qidalanma həm donor, həm resipiyent üçün icbari tibb sığorta tərəfindən qarşılanır. Habelə, transplantasiya üçün bir canlı donorun hazırlanması və əməliyyatı tibbi xidmətin tarifinə daxildir.

Məlumat üçün bildirək ki, icbari tibbi sığorta hesabına qaraciyər, böyrək və sümük iliyi transplantasiyası əməliyyatları üzrə illik limit sayı müvafiq olaraq 100, 150 və 20 müəyyən olunub.

# Xidmət rəisi isti günlərdə yanğına həssas olan bölgələri açıqladı

***Azərbaycanda hazırda gözlənilən isti hava şəraitində yanğına həssas bölgələr açıqlanıb.***




"Unikal" xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov məlumat verib. O bildirib ki, isti hava şəraitində yanğına həssas bölgələrdə, təbiət ərazilərində, xüsusən meşə sahələrində yanğın təhlükəsi ehtimalı artır. N.Mahmudov xidmət tərəfindən respublika ərazisində yanğına həssas bölgələrin yanğın indeksinin hazırlandığını və riskli istiqamətlərin müəyyən olunduğunu da açıqlayıb.

"Yanğın indeksi Gəncə-Qazax bölgəsində Gəncə, Tovuz, Şəmkirdə yüksək, Ağstafa, Tərtər, Naftalan, Ağdamda isə çox yüksək, Balakən-Şəki bölgəsi üzrə Oğuz, Şəkidə yüksək, Quba-Xaçmaz bölgəsində Quba, Qusarda yüksək, Şabranda çox yüksək, Dağlıq Şirvan bölgəsi üzrə İsmayıllı, Qobustanda çox yüksək, Lənkəran-Astara bölgəsi üzrə Lənkəran, Yardımlı, Astarada yüksək, Naxçıvan MR-da Ordubad, Naxçıvan, Şərur, Şahbuz, Culfada çox yüksək müəyyən edilib".

Xidmət rəisi vətəndaşları təbiətdə, xüsusən meşə və ot örtüyü olan yerlərdə yanğın təhlükəsizliyi qaydalarına əməl etməyə, təbiətdə təsərrüfat işləri apararkən və ya istirahət edərkən mütləq qaydada odla ehtiyatlı davranmağa çağırıb.

Qeyd edək ki, avqustun 29-30-da respublikanın bəzi bölgələrində isti hava şəraitinin hökm sürəcəyi gözlənilir.

# Sənədlərin verilməsi prosesi "Bakı KOB evi"ndə davam edir



***Dövlət Dəniz və Liman Agentliyi (DDLA) tərəfindən təqdim edilən müddətsiz xüsusi hazırlıq şəhadətnamələri üzrə sənəd qəbulu və hazır sənədlərin sahiblərinə təhvil verilməsi prosesi cari ilin 19 avqust tarixindən "Bakı KOB evi"ndə həyata keçirilir.***

"Unikal" xəbər verir ki, bu günə kimi sözügedən xidmət üzrə 56 dənizçi DDLA-nın "Bakı KOB evi"ndə fəaliyyət göstərən xidmət pəncərəsinə müraciət edib. Onlardan 45-i hazır sənədlə təmin olunub.

Xidmətin təşkilində məqsəd agentlikdə həyata keçirilən islahatların davamı olaraq operativlik, şəffaflıq, peşəkarlıq səviyyəsinin artırılması, sənədlərin əldə edilməsinə sərf olunan vaxtın minimuma endirilməsi və nəticədə vətəndaş məmnunluğunun təmin edilməsidir.

# Cinayətdə şübhəli bilinən 37 nəfər saxlanıldı



***Avqustun 28-də ölkə ərazisində qeydə alınan 38, əvvəlki dövrlərdən bağlı qalan 1 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 122, o cümlədən borclu şəxs qismində axtarışda olan 100 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 20, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 13 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 37 nəfər saxlanılıb.

# Samux rayonunda orta aylıq nominal əməkhaqqı 5,0 faiz artıb



***2024-cü ilin yanvar-iyun ayları ərzində siyahı tərkibində olan işçilərin sayı 5742 nəfər və hər bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı əvvəlki ilin eyni dövrünə nisbətən 5,0 faiz artaraq 626,1 manat təşkil etmişdir. Dövlət müəssisələrində siyahı tərkibində olan işçilərin sayı 4038 nəfər, orta aylıq nominal əməkhaqqı 664,2 manat, qeyri-dövlət müəssisələrində isə siyahı tərkibində olan işçilərin sayı 1704 nəfər, orta aylıq nominal əməkhaqqı 527,7 manat olmuşdur.***

2024-cü ilin yanvar-iyun aylarında siyahı tərkibində olan işçilərin 34,3 faizi təhsil, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 15,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 7,0 faizi istirahət, əyləncə və incəsənət, 7,2 faizi sənaye, 2,4 faizi tikinti, 4,7 faizi isə iqtisadiyyatın digər fəaliyyət növləri ilə məşğul olan sahələrin payına düşmüşdür.

*Samux Rayon Statistika İdarəsi*

# Netanyahu Qəzzada hərbi əməliyyatları dayandırma əmrini verib?



***İsrailin baş naziri Benyamin Netanyahunun Qəzza zolağında hərbi əməliyyatların dayandırılması ilə bağlı iddialar səslənib.***

"Unikal" xəbər verir ki, Netanyahunun ofisi "N13" telekanalına Qəzza zolağında hərbi əməliyyatların dayandırılmasına İsrailin razılıq verməsi barədə məlumatı təkzib edib.

""N13" kanalının İsrailin Qəzza zolağında hərbi əməliyyatları dayandırmağa razı olduğu barədə xəbəri yalandır. Bu, sadəcə Qəzza zolağında fasilələrin verilməsidir", - baş nazirin ofisinin bəyanatında deyilir.

***Gülayə Mecid***

# Tramp Zukerberqi həbslə hədələdi



***Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp bildirib ki, "Meta"nın və "Facebook" sosial şəbəkəsinin yaradıcısı Mark Zukerberq prezident seçkilərinə müdaxilə etmək qərarına gələrsə, ömrünün qalan hissəsini həbsxanada keçirəcək.***

"Unikal" xəbər verir ki, bu barədə "Politico" qəzeti məlumat dərc edib. Siyasətçi "Amerikanı xilas et" kitabında yazıb ki, "Meta" rəhbəri 2020-ci il seçkiləri zamanı ona qarşı "sui-qəsd" hazırlayıb və bunu yenidən etsə "həyatının qalan hissəsini həbsdə keçirəcək".

Kitabda Trampın Ağ Evdə Zukerberqlə görüşünün fotosu da yer alıb.

"Politico"nun qeyd etdiyi kimi, Tramp Zukerberq və həyat yoldaşı Priscilla Çanın 2020-ci il seçkiləri zamanı seçki infrastrukturunu maliyyələşdirmək üçün etdikləri 420 milyon dollarlıq töhfəni nəzərdə tutur.

"O, mənə dedi ki, "Facebook"da Tramp kimi heç kim yoxdur. Amma eyni zamanda nədənsə onu mənə qarşı çevirdi. Biz onu diqqətlə izləyirik və əgər o, bu dəfə qeyri-qanuni iş görsə, ömrünün qalan hissəsini həbsxanada keçirəcək - 2024-cü il prezident seçkilərində saxtakarlıq etmiş digərləri kimi", - nəşr kitabdan sitat gətirib.

Bundan əvvəl Zukerberq Trampı və ya ABŞ prezidenti Co Baydeni dəstəkləməyəcəyini bildirmişdi.

***Gülayə Mecid***

# "Nüvə münaqişəsi baş verərsə, Rusiya ABŞ-ni..." - Keçmiş kəşfiyyatçı

***"ABŞ-lə nüvə müharibəsi başlayarsa, Rusiya Amerikanın atış siloslarını məhv edəcək".***

"Unikal" xəbər verir ki, bu fikri ABŞ-nin keçmiş kəşfiyyatçısı Skot Ritter "YouTube" kanalında "Judging Freedom"a müsahibəsində bildirib.

Rusiyanın 10 dəqiqə ərzində ABŞ-yə çata və raket siloslarını məhv edə bilən hipersəs raketlərinə sahib olduğunu vurğulayan Ritter, "Birləşmiş Ştatlara raket atılmadan əvvəl nüvə qüvvələrini məhv edəcək dağıdıcı zərbə vurulacaq",- deyib.

Onun sözlərinə görə, amerikalılar cavab verə bilməyəcəklər, çünki onların nüvə qüvvələri çox köhnəlib.

# "Nur əl-Şəms" terror qruplaşmasının lideri məhv edildi

***İsrail ordusunun keçirdiyi hərbi əməliyyat zamanı "Nur əl-Şəms" terror qruplaşmasının lideri məhv edilib.***

"Unikal" xəbər verir ki, bu barədə İsrail ordusu "Telegram" kanalında məlumat yayıb.

Bildirilir ki, keçirilən əməliyyatlar nəticəsində terror qruplaşmasının lideri "Əbu-Saciyyə" ləqəbli Məhəməd Cəbr öldürülüb.

***Gülayə***

# KTMT-nin Qərargah rəisi Cənubi Qafqazdakı gərgin vəziyyətdən danışdı

***Cənubi Qafqazda Qərbin təsirini artırmaq cəhdləri nəticəsində yaranmış çətin vəziyyət qalmaqdadır.***



"Unikal" xəbər verir ki, bu barədə brifinqdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Birləşmiş Qərargah rəisi Andrey Serdyukov deyib.

"Yüksək ziddiyyətlər, ilk növbədə, həll edilməmiş ərazi məsələləri və Qərbin Zaqafqaziyada öz təsirini artırmaq istəyi ilə əlaqədar xüsusi narahatlıq doğurur.

Beynəlxalq terrorizm, ekstremizm, silahların, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni yayılması ilə əlaqəli olan Mərkəzi Asiya regionunda risklər və təhdidlər aktuallığını saxlamaqda davam edir. Bu amillər təşkilata üzv dövlətlərdə sabitliyə əsas təhlükə yaradır".

Serdyukovun sözlərinə görə, dünyada geosiyasi vəziyyət yaxın gələcəkdə qeyri-sabit qalmaqda davam edəcək. O hesab edir ki, Qərbin hərəkətləri mürəkkəb təxribatçı xarakter daşıyacaq, üstünlüyünü qoruyub saxlamaq və bunun üçün dünyada yeni eskalasiya mərkəzləri yaradacaq.

Baş Qərargah rəisi həmçinin bəyan edib ki, Şərqdən gələn qondarma təhlükədən qorunmaq bəhanəsi ilə regionda KTMT-nin qərb sərhədlərinin bilavasitə yaxınlığında NATO koalisiya qüvvələrinin qrupları əmələ gəlir. Ukraynanın maliyyə və silahlarla doldurulması, eləcə də Polşa və Baltikyanı ölkələrin hərbiləşdirilməsi davam edir.

***Ağarza Elçinoğlu***

# "Ukraynanın Kurska hücumu uğursuz oldu" - "Forbes"

***"Rusiya qoşunları şərqdə irəliləməyə davam edir, Ukrayna hərbçilərinin Pokrovski Cəbhəsinə yerləşdirmək üçün çoxlu əlavə qoşunları yoxdur, çoxlu ehtiyat briqadalar hazırda Kursk əməliyyatında iştirak edir".***

"Unikal" xəbər verir ki, bu barədə "Forbes" jurnalının (ABŞ) analitiki David Axe yazıb.

"Pokrovski ələ keçirməklə Rusiya Ukraynanın bütün şərq cəbhə xətti boyunca müdafiəsini zəiflədə bilər - bu, Rusiyanın daha geniş hücumu üçün kritik ilkin şərtdir ki, bu da Donetsk bölgəsinin tam işğalına gətirib çıxara bilər. Ukrayna Silahlı Qüvvələri Kursk bölgəsini işğal edəndə çoxları maraqlanırdı ki, niyə bu qoşunlar əvəzinə Pokrovski gücləndirmirlər. Və əsas izahatlardan biri budur ki, işğal rus qoşunlarını şərqdən yayındırmalı, Pokrovska təzyiqi yumşaltmalı idi. Bu mənada Kurskun işğalı təxribatçı bir manevr ola bilərdi. Ukraynanın Kursk bölgəsindəki təxribat manevri uğursuz oldu",- analitik qeyd edib.



Onun sözlərinə görə, Kursk bölgəsindəki hücum bəzi Rusiya qüvvələrinin Donetskdən köçürülməsinə səbəb ola bilmədi, əksinə bölgədə Ukrayna qüvvələrinin çatışmazlığını daha da pisləşdirdi.

***Gülayə Mecid***

# "Türkiyə istəsəydi, İsrailə gedən neftin qarşısını kəsə bilərdi"

***İsrailin Fələstində davam etdirdiyi müharibə ölkənin enerji sistemini zəiflədib.***



"Unikal" xəbər verir ki, bu barədə "Politico" nəşri yazıb. İndi keçmiş Milli Təhlükəsizlik Müşavirinin müavini Çuk Freiliç bildirib ki, Livanla sərhəddə gərginliyin artması elektrik şəbəkəsinə zərər verə bilər: "Hizbullah elektrik stansiyalarına və digər obyektlərə hücum etmək qərarına gəlsə, bu, böyük problemdir. Onların mülki infrastrukturu hədəfə ala biləcək dəqiq raketləri var və müasir ölkəni elektriksiz və kompütersiz idarə etmək çətindir".

Qeyd olunub ki, özünün bir neçə təbii sərvətinə malik olan İsrailin enerji ilə bağlı çoxdan problemi var: "İsrailin elektrik stansiyalarının əsas hissəsi qazla işləyir. Hizbullah ilə artan münaqişə indi regional status-kvonu təhdid edir. Üç əsas təbii qaz ehtiyatından biri olan Tamar yatağı Qəzzaya yaxınlığı nəzərə alınmaqla təhlükəsizlik problemləri səbəbindən artıq müvəqqəti olaraq bağlanıb və daha böyük Leviafan sahəsi şimal sərhədinə yaxındır və raket hücumları üçün hədəfə çevrilə bilər".

Xam neft, benzin və dizelə çıxış uzun müddətdir İsrail siyasətçiləri üçün böyük başağrısı olub və 1967 və 1973-cü illərdə regional müharibələrdən sonra ərəblərin başçılıq etdiyi embarqolar sarsıdıcı enerji böhranlarına səbəb olub. Buna cavab olaraq İsrail təhlükəsizlik xidmətləri Afrikadan neft qarşılığında silah alveri ilə bağlı gizli proqrama başladılar.

İsrailin dəqiq neft idxalı statistikası milli sirr olsa da, Azərbaycan təkcə ötən yanvar ayında İsrailə 300 milyon dollar dəyərində xam neft satıb.

Bakı Topçubaşov Mərkəzinin elmi işçisi Ayaz Rzayev deyib: "İsrail Azərbaycanı müsəlmanların çoxluq təşkil etdiyi dünya daxilində həlledici müttəfiq kimi qiymətləndirir, təkcə strateji dərinliyi deyil, həm də vacib enerji təhlükəsizliyini təklif edir. Azərbaycan üçün İsraillə əlaqələr ən müasir hərbi texnologiyaya çıxışı təmin edərək, regionda əhəmiyyətli texnoloji üstünlüyün saxlanmasına kömək edib. Azərbaycan da müsəlman dövlətləri ilə həmrəyliyə mühüm əhəmiyyət verir".

Keçmiş milli təhlükəsizlik məmuru Freiliçin sözlərinə görə, Türkiyə istəsəydi, İsrailə gedən neftin qarşısını kəsə bilərdi: "İsrail neftinin böyük hissəsi Türkiyəyə boru kəmərləri ilə gəlir və onlar istəsələr, bunu dayandıra bilərdilər".

***Ağarza Elçinoğlu***

30_27 IYUI-QARA.qxd 8/29/2024 10:04 PM Page 16



# Azərbaycanın U-17 millisinin heyəti və oyunlarının təqvimi bilindi



***17 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası sentyabrın 3-dən 7-dək Bakıda, sentyabrın 8-dən 13-dək isə Türkiyənin İstanbul şəhərində təlim-məşq toplanışında olacaq.***

"Unikal" AFFA-nın saytına istinadən xəbər verir ki, U-17 millimiz hazırlıq çərçivəsində sentyabrın 9-da və 12-də Türkiyənin müvafiq yaş qrupundan ibarət yığması ilə iki yoldaşlıq oyunu keçirəcək.

Toplanışda dəvət olunan futbolçuların adları və oyunların təqvimi aşağıdakı kimidir:

Məhdi Həsənov, Elşən Atakişiyev, Kamil Məmmədov, Elvin Vəliyev, Vusal Kərimov, Elnur Abdullayev (hamısı "Neftçi"), Rauf Əyyubov, Həzrət Səmədov, Əlibəy Mahmudov, Tunar Muradov, İbrahim Xəlilov (həmısı "Sabah"), Fərid Cabbarlı, Murad Qurbanov (hər ikisi "Zirə"), Rəvan Teymurov, Əli Qazibəyov, Abdulaziz Cabbarlı, Nihat İsgəndərov, Əli İbrahim (hamısı "Qarabağ"), Zeyd Nəsirulla ("Hertha Zehlendorf", Almaniya), Nihad İsaqov ("Kəpəz"), İbrahim Babayev ("Servette FC 1890" İsveçrə), İslam Həsənov ("Srvena Zvezda", Serbiya)

**9 sentyabr**

17:00. Türkiyə - Azərbaycan (Darıca stadionu)

**12 sentyabr**

14:00. Türkiyə - Azərbaycan (Darıca stadionu)

# Azərbaycan parataekvondoçusu yarımfinala yüksəldi




***Azərbaycan parataekvondoçusu Sabir Zeynalov "Paris-2024" Yay Paralimpiya Oyunlarında ilk görüşünü keçirib.***

"Unikal" xəbər verir ki, K44 kateqoriyası üzrə 58 kiloqram çəki dərəcəsində çıxış edən idmançı 1/4 finalda yaponiyalı Mitsuya Tanaka ilə qarşılaşıb.

Rəqibinə qalib gələn idmançımız yarımfinala vəsiqə qazanıb.

# "İrəli atılmağımız müdafiədə boşluqlara səbəb oldu" - Bəhlul Mustafazadə



***"Kifayət qədər ağıllı və güclü komandaya qarşı oynayırdıq. Keyfiyyətləri hiss olunurdu. Əlimizdən gələni etməyə çalışdıq ki, qalib gələk, turu keçən tərəf olaq. Təəssüflər olsun ki, alınmadı. Edə biləcək bir şey yoxdur. Avroliqa oyunlarına hazırlaşacağıq və çalışacağıq ki, orada ötən mövsümdən daha yaxşı nəticə verək".***

QOL.az xəbər verir ki, bu sözləri "Qarabağ"ın futbolçusu Bəhlul Mustafazadə Çempionlar Liqasının pley-off mərhələsində Zaqreb "Dinamo"suna 0:2 hesabı ilə uduzaraq turnirdə mübarizəni dayandırdıqları cavab oyunundan sonra jurnalistlərə açıqlamasında deyib.

O, "Dinamo"nun "Qarabağ"dan çox üstün olmadığını bildirib: "Əslində bunu deməzdim. Çünki səfərdəki oyuna da baxsaq, görərik ki, əlimizə düşən şansları dəyərləndirsəydik, başqa ssenari ola bilərdi. Buradakı oyunda da bizə qələbə lazım olduğu üçün daha çox irəli atılmışdıq ki, bu da arxa xətdə boşluqlar verməyimizə səbəb oldu. Düşünürəm ki, birinci oyun şanslardan istifadə edə bilsəydik, fərqli nəticə olardı".

27 yaşlı müdafiəçi "Dinamo"nun iki oyunun cəmində "Qarabağ"a 5 cavabsız qol vurmasının komandasının təcrübəsizliyi ilə əlaqəli olmadığını bildirib: "Düşünmürəm ki, qol vura bilməyimizə təcrübə çatmadı. Bəzən olur ki, yüz faizlik şansı dəyərləndirə bilmirsən. Təcrübə çatışmazlığı deməzdim, şans deyərdim. Düşünürəm ki, son vuruşların üzərində də çalışmalıyıq. Avroliqada daha yaxşı nəticə verməyə çalışacağıq".

B. Mustafazadə komandanın qələbəsi üçün çatışmayan məqamlardan da danışıb: "İlk növbədə əlimizə düşən şansları dəyərləndirməli idik. Buradakı oyunda da şanslar yaratdıq. Təəssüf ki, yerinə yetirə bilmədik. Məşqçilər və oyunçularla birlikdə fasilədə deyirdik ki, hələ heç nə bitməyib. İnanırdıq ki, burda daha yaxşı nəticə göstərə bilərik. Amma alınmadı".

O, Avropa Liqasının yeni formatı haqda da fikirlərini bildirib: "Düşünürəm, maraqlı olacaq. Avroliqada çox oyun oynamağımız bizim üçün də faydalıdır".



# "Qarabağ"ın Avroliqada rəqibləri hansı komandalar ola bilər?

***Bu gün Avropa Liqasında Liqa mərhələsinin püşkatma mərasimi keçiriləcək.***

"Unikal" xəbər verir ki, püşkatma zamanı Azərbaycan təmsilçisi "Qarabağ"ın da rəqibləri müəyyənləşəcək. Ağdam klubu 2-ci və ya 3-cü səbətdə yer alacaq. Tədbir Bakı vaxtı ilə saat 15:00-da başlayacaq.

Avropa Liqasının bütün 36 iştirakçısının adına bu gün keçiriləcək pley-off mərhələsinin cavab oyunlarından sonra aydınlıq gələcək. Hazırda turnirdə iştirak edəcək 24 komanda dəqiqləşib.

Qeyd edək ki, Avroliqada Liqa mərhələsinin oyunlarının təqvimi avqustun 31-də açıqlanacaq.

# Azərbaycan cüdoçusu ikiqat dünya çempionu oldu

***Perunun paytaxtı Limada keçirilən yeniyetmələr arasında dünya çempionatının ilk günündə Azərbaycan cüdoçuları 1 qızıl və 1 bürünc medal qazanıblar.***

"Unikal" xəbər verir ki, - 50 kq. çəkidə Məhəmmədəli Hüsiyev əzmkarlıqla mübarizə apararaq bürünc medal əldə edib.

- 55 kq. çəkidə mübarizə aparan Nihad Məmişov bütün rəqiblərini məğlub edərək ikinci dəfə dünya çempionu titulunu qazanıb.

O, gün ərzində göstərdiyi üstün performansla, xüsusilə finalda Monqolustan təmsilçisi Batbilegi ipponla məğlub edərək bu titula layiq olduğunu bir daha sübut edib.

Məmişovun bu uğuru Azərbaycanı medal cədvəlində ikinci yerə yüksəldib.

# "Bayer" futbolçusunu icarəyə verdi



***"Bayer" müdafiəçisi Odilon Kossununu "Atalanta"ya icarəyə verib.***

QOL.az klubun saytına istinadən xəbər verir ki, Kot-d'İvuarlı ilə icarə müqaviləsi 2024/25 mövsümünün sonuna qədərdir. İtaliya təmsilçisi gələn ilin yayı 23 yaşlı oyunçunun birdəfəlik almaq hüququna malikdir.

Kossunu 2021-ci ilin iyulundan Leverkuzen klubunda çıxış edir. Ümumilikdə o, "Bayer" 101 oyuna çıxıb, 1 qol vurub və 3 qolun ötürməsini verib.

# "Yuventus" 51.3 milyon avroya futbolçu aldı



***"Yuventus" növbəti transferini həyata keçirib.***

QOL.az klubun saytına istinadən xəbər verir ki, Turin təmsilçisi "Atalanta"dan Teun Kompeynersi alıb. 26 yaşlı yarımmüdafiəçi ilə 5 illik müqavilə imzalanıb. Bu transfer üçün "Yuventus" 51.3 milyon avro təzminat ödəyib.

Qeyd edək ki, niderlandlı futbolçu ötən mövsüm bütün turnirlərdə 51 matçda iştirak edib, 15 qol vurub, 7 qolun ötürməsini verib.